RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 63 (8942) ÇƏRŞƏNBƏ, 30 mart 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Prezident qayğısının növbəti nümunəsi

## Müraciətlərə baxılmasının yeni keyfiyyət mərhələsinə yüksəldilməsi vətəndaş məmnunluğuna xidmət edəcək



**Prezident İlham Əliyevin inkişaf strategiyasının əsas göstəricilərindən biri də vətəndaşlara göstərilən xidmətlərin daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilməsidir. Dövlət başçısının martın 28-də açılışında iştirak etdiyi Prezident Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzinin yaradılması bir daha göstərdi ki, vətəndaşlara keyfiyyətli xidmət sahəsində işlər davamlı şəkildə aparılır.**

### İnsanların güvənc yeri

**Cəmiyyətin tərəqqisi ilə yanaşı, sosial həmrəyliyini təmin edən əsas şərtlərdən biri vətəndaşı düşündürən problemlərin vaxtında həll edilməsi, hər bir insanın dövlət strukturlarına olan müraciətlərinə çevik və ədalətli münasibətin ortaya qoyulmasıdır. Ələlxüsus söhbət sosial dövlətdən, sosial cəmiyyətdən gedirsə, burada vətəndaşı narahat edən məsələlərə daha diqqətlə yanaşılması olduqca vacibdir. Çünki məhz bu kimi məsələlərin kökündə insanların dövlət orqanlarına inamının və etimadının formalaşması dayanır.**

**Bütün bunlar ilk gündən Prezident İlham Əliyevin xüsusi diqqət yetirdiyi məsələlərdir. Dövlət başçısının idarəçilik fəaliyyətində diqqəti çəkən üstün məqamlardan biri onun hər zaman vətəndaşların mənafeyini ön plana çəkməsidir. Təsadüfi deyil ki, Prezident İlham Əliyev regionlara səfər proqramlarında vətəndaşlarla görüşlərə xüsusi yer ayırır, onları hər zaman dinləyir. Son dərəcə səmimiyyət fonunda keçən bu görüşlər cənab Prezidentin vətəndaşların qayğılarına və problemlərinə həssas münasibətini nümayiş etdirir. Bu da onu göstərir ki, İlham Əliyev üçün insan amili bütün məqsədlərin fövqündə dayanır.**

**Hələ illər öncə "Bizim siyasətimiz şüar, boş-boş vədlər, reallığı əks etdirməyən bəyanatlar deyildir. Bizim siyasətimiz konkret işlərdir. Hər bir insanın qayğısına diqqət yetirmək, hər bir insanın, hər bir rayonun problemini çalışıb həll etməkdir" deyən dövlət başçısı bütün fəaliyyəti boyu daim bu prinsiplərə sadiq olduğunu təsdiqləyib. Elə buna görə də Azərbaycan vətəndaşları Prezident İlham Əliyevin simasında özlərinin ən yaxın hamisini, güvənc yerini görür və bununla da fəxr edirlər.**

**Onu da qeyd edək ki, Prezident İlham Əliyev vətəndaşların ərizə, şikayət və təkliflərinə qanunvericiliyə uyğun olaraq müəyyən edilmiş müddətlər ərzində və obyektiv baxılmasını, onların haqlı tələblərinin təmini sayəsində zəruri tədbirlərin görülməsini bütün dövlət orqanları qarşısında mühüm vəzifələrdən biri kimi müəyyən edib.**

*Ardı 2-ci səh.*

# Məhkumların hüquqlarının qorunması üçün ardıcıl tədbirlər görülür

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cəmiyyətin həssas qrupu olan qadın və yetkinlik yaşına çatmayan məhkumlar üçün Bakıda yeni inşa olunmuş müasir penitensiar müəssisələrdə yaradılan şəraitlə tanış olub.



AZƏRTAC xəbər verir ki, ötən əsrin 30-cu illərində inşa olunmuş və dövrün tələblərinə cavab verməyən penitensiar müəssisələrin əvəzinə inşa edilmiş yeni müəssisələrdə nümunəvi şərait yaradılıb, istirahət, psixoloq, ibadət otaqları və digər otaqlar ayrılıb, məhbusların faydalı işlə məşğul olmaları üçün istehsalat sahələri təşkil edilib.

Hər iki müəssisədə məhkumların asudə vaxtlarını səmərəli keçirmələri məqsədilə idman sahələri, təhsil və peşə ixtisaslarına yiyələnmələri üçün lazımi infrastruktur yaradılıb. Burada zəruri ədəbiyyatla təchiz olunmuş kitabxana, oxu zalı və kompüter otağı vardır.

*Ardı 2-ci səh.*

# Siyasi iradə və iqtisadi gücün yaratdığı reallıq

## İlham Əliyev Qarabağ və Şərqi Zəngəzurda quruculuq, abadlıq işlərini planlı şəkildə həyata keçirir

Azərbaycan xalqı dostluq, həmrəylik və yüksək mənəviyyat bayramı olan Novruzu öz ərazi bütövlüyünü "Dəmir yumruq"la bərpa etmiş qalib xalq kimi qeyd etdi. Özü də daha coşqulu, daha təmtəraqlı…

Müzəffər Ali Baş Komandan kimi işğaldan azad edilən torpaqlarımızda ilk Novruz tonqalını Şuşada qalayan İlham Əliyev ikinci bayram tonqalını Suqovuşanda alovlandırdı. Düşmənin bağrını yaran bayram tonqalının istisi bütün Qarabağa yayıldı.

### Qarabağda ikinci Novruz tonqalı

Artıq Azərbaycan xalqının hər bayramda səsləndirdiyi "Gün o gün olsun ki, Novruz tonqalları Qarabağda alovlansın!" arzusu reallığa çevrilib. Bu gün Qarabağ və Şərqi Zəngəzurda bayramlarımız coşqu ilə qeyd edilir. 30 illik Qarabağ həsrəti sona çatan keçmiş məcburi köçkünlərimiz indi səbirsizliklə böyük qayıdışı gözləyirlər.

Martın 20-də Tərtər rayonunun Suqovuşan qəsəbəsində bayram tonqalı alovlandırıb xalqa ünvanladığı təbrikdə İlham Əliyev vurğuladı ki, artıq bu, bir ənənəyə çevrilib. Bundan sonra işğaldan azad edilmiş torpaqlarımızda həm tikinti-quruculuq işləri daha da sürətlənəcək, həm də milli bayramlarımız təntənəli şəkildə qeyd ediləcək. Çünki bu torpaqlar qədim Azərbaycan yurdudur, bunu tarixi faktlar, reallıqlar da təsdiqləyir. Qarabağ, onun tarixi Azərbaycan xalqının adı ilə bağlıdır. Ermənilər tarixi saxtakarlıqlara əl atsalar da, zaman və tarix həqiqəti üzə çıxartdı. 30 ildən sonra tarixi ədalət bərpa edildi.

30 il ərzində Azərbaycan misli görünməmiş ikişaf yolu keçdi. Ölkəmizin iqtisadi və siyasi gücü artdı. Avrasiya geosiyasi arealında sözü eşidilən ölkəyə, etibarlı tərəfdaş dövlətə çevrildi. İlham Əliyevin hücum diplomatiyası erməni uydurmalarını, saxtakarlıqlarını ifşa etdi. Lakin buna baxmayaraq işğalçıya heç bir təzyiq göstərilmədi. Ermənistan silahlı birləşmələrinin işğal edilən Azərbaycan ərazilərini tərk etmələri ilə bağlı qətnamələr kağız üzərində qaldı.

Müzəffər Ali Baş Komandan, xalqın birliyi və ordunun gücü "dəmir yumruq" yaratdı. 2020-ci ildə tarixi missiya yerinə yetirildi və illər sonra düşmən tapdağı altında inləyən torpaqlarımız azadlığa qovuşdu.

*Ardı 5-ci səh.*

# Dünyanın ehtiramla yanaşdığı lider

Tarix sübut edir ki, hər bir dövlətin istər inkişafında, istər nüfuzunun formalaşmasında, istərsə də qlobal proseslərdəki iştirak səviyyəsində lider amili böyük rol oynayır. Elə Azərbaycanın geridə qoyduğu 30 illik müstəqillik yolu əsl siyasi liderlərin xalqların və dövlətlərin həyatında nə qədər vacib rol oynadığını göstərən möhtəşəm tarixi və politoloji nümunədir.

Belə ki, əgər dövlət müstəqilliyimizin bərpasının ilk illərində üzləşdiyimiz problemlərin obyektiv səbəblərindən biri respublikamıza rəhbərlik edənlərin siyasi lider funksiyasını yerinə yetirə bilməməsi idisə, 1993-cü ilin ortalarından başlanan yeni siyasi kurs Azərbaycana əsl liderin rəhbərlik etməsinin nümunəsi idi. Bu baxımdan Ulu Öndər Heydər Əliyevlə başlanan siyasi yol dövlətin və xalqın taleyində lider amilinin rolunu aydın göstərən tarixi gerçəklikdir.

Ötən 19 ildə isə Prezident İlham Əliyevin layiqincə davam etdirdiyi bu siyasi kurs müasir Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirdi. Təsadüfi deyil ki, İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan qlobal aktual problemlər olan enerji təhlükəsizliyinə böyük töhfələr verən, Avropa İttifaqının üzvü olan dövlətlər tərəfindən strateji tərəfdaş kimi qəbul edilən, regionun tranzit imkanlarını öz milli maraqlarına uyğun formada səfərbər edən dövlətdir. Vətən müharibəsindəki zəfər isə Azərbaycanın regionda və dünyada söz sahibi kimi nüfuzunu daha da yüksəltdi.

*Ardı 5-ci səh.*

# Vətənə dönürük

"Bütün Qarabağ və Şərqi Zəngəzur bölgəsində çox genişmiqyaslı abadlıq işləri aparılır, şəhərlər yenidən qurulur, kəndlər yenidən salınır. Əlbəttə ki, bizim əsas vəzifəmiz keçmiş məcburi köçkünləri tezliklə bu doğma diyara qaytarmaqdır".

## Tezliklə Qarabağ və Şərqi Zəngəzurda yeni həyat başlayacaq

Prezident İlham Əliyevin martın 20-də Tərtər rayonunun Suqovuşan qəsəbəsində bayram tonqalını alovlandırdığı zaman səsləndirdiyi kimi, biz döyüşərək, qan tökərək, şəhidlər verərək doğma diyarımızı erməni işğalından azad etdik və Qarabağa əbədi yaşamaq üçün qayıtdıq. Və elə işğalçı Ermənistana qarşı aparılan haqq və ədalət mübarizəsinin və əldə olunan möhtəşəm zəfərin əsas qayəsi də 30 il əvvəl doğma yurdlarından zorla didərgin salınan keçmiş məcburi köçkünlərin dədə-baba torpaqlarına qaytarılmasıdır. Hazırda Azərbaycan dövləti bu mühüm missiyanın həyata keçirilməsi üçün Şərqi Zəngəzurda və Qarabağda böyük quruculuq və bərpa işləri aparır.

*Ardı 5-ci səh.*

# Qarabağda ilk idman tədbiri

## Suqovuşan avarçəkmədə əsas inkişaf mərkəzlərindən biri olacaq




*Bax: səh. 7*

# Məhkumların hüquqlarının qorunması üçün ardıcıl tədbirlər görülür









*Əvvəli 1-ci səh.*

Dövlət başçısının istehsalat sahələrinin genişləndirilməsi, bu fəaliyyətə sahibkarların, iş adamlarının cəlb edilməsi ilə bağlı tapşırıqlarına uyğun olaraq yeni müəssisələrdə yaradılmış istehsal bölməsində məhkumlar toxuculuq, xalçaçılıq, biçmə, tikiş və şirniyyat sexlərində çalışacaqlar.

Müəssisənin ikimərtəbəli tibb-sanitariya hissəsində həkim otaqları, müasir avadanlıqla təchiz edilmiş müayinə-diaqnostika və stomatologiya kabinetləri, laboratoriya, aptek, pediatr otağı və digər yardımçı otaqlar yerləşir.

Yeni penitensiar müəssisədə məhkumlarla görüşlər üçün də bina inşa olunub. Burada məhkumların ailə üzvləri ilə qısamüddətli və 3 günlük uzunmüddətli görüşü üçün hər cür məişət şəraiti, mətbəxi, gəzinti yerləri olan ayrıca otaqlar vardır.

Müəssisələrin ərazisində inşa olunmuş ikimərtəbəli məktəb binasında sinif otaqları ilə yanaşı, əmək, kompüter və digər otaqlar, idman zalları yerləşir. Burada yaradılmış şərait məhkumların, xüsusilə yetkinlik yaşına çatmayanların təhsil almalarına və peşə ixtisaslarına yiyələnmələrinə imkan verir.



Qeyd edək ki, Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində cəmiyyətimizin həssas təbəqəsi olan qadın və yetkinlik yaşına çatmayan məhkumlar üçün yeni penitensiar müəssisələrin tikilməsi ölkəmizdə aparılan köklü islahatların tərkib hissəsidir. Burada yaradılan müasir şərait məhkumların hüquqlarının təminatına, onların səmərəli islah olunaraq sosial adaptasiyasına xidmət edəcəkdir. Xatırladaq ki, Bakının Zabrat qəsəbəsində yeni istintaq təcridxanası, Naxçıvan Muxtar Respublikasında və Şəkidə müasir penitensiar komplekslər inşa olunub. Gəncə və Lənkəran şəhərlərində, habelə paytaxtın Umbakı qəsəbəsində belə müəssisələrin tikintisi aparılır.

Azərbaycan dövlətinin siyasi kursunda humanizm başlıca prinsiplərdən biridir.





Prezident İlham Əliyevin bu vaxtadək imzaladığı 35 əfv aktı ilə 6 minədək məhkum bağışlanıb, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul olunmuş 4 amnistiya aktı isə 40 mindən çox insanı əhatə edib.

Eyni zamanda ölkədə ədliyyə sisteminin müasirləşdirilməsi ilə bağlı aparılan islahatlar çərçivəsində penitensiar xidmətin fəaliyyəti təkmilləşdirilir, cəza siyasəti humanistləşdirilir, məhkumların hüquqlarının qorunması, saxlanma şəraitinin, tibbi və digər təminatlarının yaxşılaşdırılması üzrə ardıcıl tədbirlər görülür.

Zəfər günü münasibətilə elan edilmiş və bu ərəfədə icrası başa çatan amnistiya aktı isə dövlət başçısının humanizm siyasətinin növbəti təzahürü olmaqla daha böyük əhatə dairəsinə görə fərqlənib və 15 mindən çox şəxsə şamil edilib.

Həmçinin həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının genişləndirilməsi haqqında ayrıca qanun qəbul olunub, cəza siyasətinin humanistləşdirilməsi məqsədilə cinayət qanunvericiliyinə 600-dək dəyişiklik edilib, bir çox əməl dekriminallaşdırılıb və 2200-ə yaxın məhkum cəzadan azad olunub. Eyni zamanda məhkumların azad cəmiyyətə tamhüquqlu üzv kimi qayıdışı daim diqqətdə saxlanılaraq onların sosial adaptasiyası ilə bağlı xüsusi qanun qəbul olunub. Vaxtından əvvəl şərti azadetmə institutu da səmərəli tətbiq olunaraq, son iki ildə 3500-dən çox məhkum vaxtından əvvəl şərti azadlığa buraxılıb.

---

# Prezident qayğısının növbəti nümunəsi

## Müraciətlərə baxılmasının yeni keyfiyyət mərhələsinə yüksəldilməsi vətəndaş məmnunluğuna xidmət edəcək

*Əvvəli 1-ci səh.*

Dövlət başçısının vəzifəyə təyin etdiyi bütün dövlət məmurları qarşısında da qoyduğu əsas vəzifələrdən və tələblərdən biri vətəndaşlara layiqli, dürüst və şəffaf xidmət göstərməkdir. Təbii ki, hər bir dövlət məmuru vətəndaşların müraciətlərinə baxılması sahəsində də öz məsuliyyətini dərk etməli, səlahiyyətlərini vicdanla yerinə yetirməlidir.

### İnnovativ yeniliklərin tətbiq olunduğu mərkəz

Prezident İlham Əliyevin vətəndaşlara hər zaman layiqli xidmətin göstərilməsi barədə təşəbbüslərindən irəli gələrək Azərbaycanda hökumət-vətəndaş münasibətlərində daha çevik mexanizmlərin tətbiqi istiqamətində addımların atılması həmişə diqqət mərkəzində olub. İndiyədək "ASAN xidmət" mərkəzlərinin və digər innovativ mexanizmlərin formalaşdırılması ilə vətəndaşlar onlara göstərilən keyfiyyətli xidmət nümunələrinin şahidinə çevriliblər.

Təbii ki, dövlət hakimiyyəti orqanları, idarə, təşkilat və müəssisələrin rəhbərləri vətəndaşların qəbul edilməsini və müraciətlərinə baxılmasını təmin etməlidirlər. Bütün bunlar Azərbaycanın qanunvericiliyi ilə yüksək səviyyədə təsbit olunub. Azərbaycan Konstitusiyasının 57-ci maddəsinə əsasən vətəndaşların dövlət orqanlarına şəxsən müraciət etmək hüququ var. O cümlədən hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətlərdə yazılı cavab verilməlidir. Bu sahədə ən gözəl nümunəni isə Azərbaycan Prezidentinin Administrasiyası yaradır. Prezident Administrasiyasına daxil olan vətəndaş müraciətləri hər zaman diqqətlə araşdırılır, qaldırılan məsələlərin həlli üçün müvafiq tədbirlər görülür.

Prezident Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzinin yaradılması isə vətəndaş müraciətlərinə baxılmasını yeni keyfiyyət mərhələsinə yüksəldir. Mərkəzdə həm ilk dəfə qəbula gələn, həm də əvvəlcədən qəbula yazılan vətəndaşlar üçün iki qeydiyyat köşkü quraşdırılıb. Vətəndaşlar şəxsiyyət vəsiqəsi ilə qeydiyyatdan keçib müvafiq ardıcıllığa riayət etməklə qəbula yazıla və müraciət edə biləcəklər. Burada fəaliyyət göstərəcək könüllülər də bu prosesdə vətəndaşlara yardımçı olacaqlar.

Mərkəzdə tətbiq olunan yeniliklərdən biri də Çağrı Mərkəzinin istifadəyə verilməsidir. Vətəndaşlar 1111 nömrəsinə zəng edərək onları narahat edən məsələlər barədə məlumat verə biləcəklər. Bu müraciətlər operatorlar tərəfindən dərhal qəbul olunaraq vətəndaşlara müvafiq izahat veriləcəkdir.

Mərkəzdə tətbiq olunan daha bir yenilik isə ölkənin müxtəlif bölgələri ilə birbaşa videokonfranslar keçirilməsi imkanının yaradılmasıdır. Burada ölkənin bütün şəhər və rayon icra hakimiyyətlərinin vətəndaş qəbulu otaqları və Prezident Administrasiyasının müvafiq struktur bölməsi ilə paralel olaraq əlaqə saxlamaq imkanı verən xüsusi rabitə sistemi var.

Vətəndaş məmnunluğunun təmin edilməsi, dövlət qulluqçusu-vətəndaş münasibətlərinin keyfiyyətcə daha yüksək pilləyə qaldırılması, vətəndaşların qəbulunda şəffaflığın artırılması məqsədilə yaradılan mərkəzdə bütün bu vəzifələrin yerinə yetirilməsi üçün hər cür şərait mövcuddur.

Vətəndaşların müraciətlərinə diqqətlə yanaşılması, problemlərinin vaxtında həll edilməsi ölkəmizin inkişafına, cəmiyyətimizin rifahına xidmət edən əsas tələblərdən biridir. Bu baxımdan innovativ yeniliklərin tətbiq olunduğu Prezident Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzinin istifadəyə verilməsi ictimai nəzarətin mühüm mexanizmlərindən biri olan vətəndaş müraciətlərinə daha operativ baxılmasına şərait yaradacaq. Müraciətlərə baxılmasının yeni keyfiyyət mərhələsinə yüksəldilməsi isə həm də vətəndaşlara ali qayğının növbəti nümunəsidir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan ilə Misir arasında əlaqələr qarşılıqlı etimad və dəstəyə əsaslanır

## Misir Ərəb Respublikasının Prezidenti zati-aliləri cənab Əbdülfəttah əs-Sisiyə

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikası ilə Misir Ərəb Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə mənə ünvanladığınız məktuba görə təşəkkür edirəm. Mən də Sizi və dost xalqınızı bu əlamətdar hadisə ilə şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ölkələrimizi və xalqlarımızı birləşdirən dostluq və əməkdaşlığın, dövlətlərarası münasibətlərimizin bugünkü səviyyəsi məmnunluq doğurur və bu münasibətlər bizim üçün çox əhəmiyyətlidir.

Ötən illər ərzində Azərbaycan ilə Misir arasında əlaqələr ikitərəfli və çoxtərəfli qaydada konstruktiv məcrada inkişaf etmişdir. Bu mənada Qoşulmama Hərəkatı çərçivəsində qarşılıqlı etimad və dəstəyə əsaslanan əməkdaşlığımızı xüsusi qeyd etmək istərdim.

İnanıram ki, qarşılıqlı faydalı əməkdaşlığımız birgə səylərimizlə bundan sonra da dost ölkələrimizin və xalqlarımızın mənafeyi naminə möhkəmlənəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Misir xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 mart 2022-ci il*

# Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisidən

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident, Sizə ən səmimi salamlarımı çatdırıram.

Misir ilə Azərbaycan arasında diplomatik əlaqələrin qurulmasının otuzuncu ildönümü münasibətilə Misir Ərəb Respublikasının hökuməti və xalqı adından, şəxsən öz adımdan Sizə və dost ölkənizin hökumətinə və xalqına səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Ölkələrimiz arasında ikitərəfli münasibətlər həmişə konstruktiv əməkdaşlıq və qarşılıqlı hörmətlə səciyyələnib, eyni zamanda, Misir və Azərbaycan dövlətlərinin və xalqlarının ümumi maraqlarına nail olmaq üçün ciddi iş aparılıb. Həmçinin iki ölkə arasında müxtəlif sahələrdə ikitərəfli əməkdaşlıq mühüm nailiyyətlərin əldə edilməsində həmişə səmərəli və uğurlu olub, indi də davam edir.

Misirin və Azərbaycanın, eləcə də onların dost xalqlarının mənafeləri naminə qarşılıqlı maraq kəsb edən sahələrdə, xüsusilə enerji, tikinti, əczaçılıq sənayesi və mədənçıxarma sahələrində ikitərəfli əlaqələrimizin daha da gücləndirilməsi üçün birgə işləmək bizim üçün çox vacibdir.

Zati-aliləri cənab Prezident, dost ölkənizə və xalqınıza sabitlik, tərəqqi arzu edir, Sizə ən yüksək hörmət və ehtiramımı bildirirəm.

***Əbdülfəttah əs-SİSİ,***
***Misir Ərəb Respublikasının Prezidenti***

# Ərzaq təhlükəsizliyinin təmin edilməsinə və əhalinin əsas ərzaq məhsulları ilə təchizatının yaxşılaşdırılmasına həsr olunan müşavirə keçirilib

Martın 29-da Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsinə və əhalinin əsas ərzaq məhsulları ilə təchizatının yaxşılaşdırılmasına həsr olunan müşavirə keçirilib



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə keçirilən müşavirədə "Minimum istehlak səbətinin tərkibinə daxil olan bir sıra əsas ərzaq mallarının və onların istehsalında istifadə olunan malların ölkə ərazisindən aparılmasının tənzimlənməsinə dair tədbirlər haqqında" Nazirlər Kabinetinin 18 mart tarixli Qərarından irəli gələn tapşırıqlar, əsas ərzaq məhsulları ilə daxili bazarın təchizatının yaxşılaşdırılması və özünütəminat səviyyəsinin qorunması, yerli istehsalçıların stimullaşdırılması, əsas ticarət tərəfdaşları ilə idxal-ixrac əməliyyatları, daxili bazarda qiymət manipulyasiyası üzərində nəzarətin gücləndirilməsi və digər məsələlər geniş müzakirə olunub. Müşavirədə İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin, Dövlət Gömrük Komitəsinin, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin, Qida Təhlükəsizliyi və Dövlət Ehtiyatları agentliklərinin məruzələri dinlənilib və müvafiq tapşırıqlar verilib.

# Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 859 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası"nda və 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Ərzaq məhsullarının dövlət sifarişi ilə satın alınması mexanizminin təkmilləşdirilməsi və "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 158-VQD nömrəli Qanununun tətbiqi və "Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 859 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 3 sentyabr tarixli 1439 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 859 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 664, № 9, maddə 1486; 2018, № 11, maddə 2237; 2019, № 4, maddə 619; 2021, № 9, maddə 979) ilə təsdiq edilmiş "Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası"na aşağıdakı məzmunda 3.1.4-1-ci yarımbənd əlavə edilsin:

"3.1.4-1. ərzaq məhsullarının satıcıları satmaq niyyətində olduqları məhsulların növü, qiyməti və miqdarı barədə məlumatı hər il sentyabrın 1-dək portalda yerləşdirirlər;".

2. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1940; 2020, № 7, maddə 897, № 9, maddə 1147) ilə təsdiq edilmiş "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

2.1. aşağıdakı məzmunda 3.1.3-1-ci və 3.2.3-1-ci yarımbəndlər əlavə edilsin:

"3.1.3-1. "ərzaq məhsullarının dövlət sifarişi ilə satın alınması" elektron portalı" altsistemi;";

"3.2.3-1. "ərzaq məhsullarının dövlət sifarişi ilə satın alınması" elektron portalı" altsistemi vasitəsilə satınalan təşkilatlar tərəfindən ərzaq məhsullarının dövlət büdcəsinin vəsaiti hesabına satın alınmasına dair tələb və təkliflərin yerləşdirilməsi, istehsalçıların və ya satıcıların satınalan təşkilat tərəfindən seçilməsi, habelə satınalan təşkilatlarla istehsalçılar və ya satıcılar arasında ərzaq məhsullarının dövlət sifarişi ilə bağlı alqı-satqı əməliyyatlarının və bununla əlaqədar digər tədbirlərin həyata keçirilməsi;";

2.2. 5.1.25-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 5.1.26-cı yarımbənd əlavə edilsin:

"5.1.26. ərzaq məhsulları istehsalçılarının, satıcılarının və satınalan təşkilatların aşağıdakı məlumatları:

1. fiziki şəxs olduqda - soyadı, adı, atasının adı, qeydiyyat ünvanı və fərdi identifikasiya nömrəsi;
2. hüquqi şəxs olduqda - tam adı, qanuni təmsilçisinin soyadı, adı və atasının adı, hüquqi ünvanı;
3. VÖEN-i və vergi ödəyicisi kimi uçota alınması haqqında digər məlumatlar;
4. əlaqə nömrələri;
5. elektron poçt ünvanı;
6. bank rekvizitləri (bankın adı, müxbir hesabı, kodu, VÖEN-i, SWIFT kodu və digər müvafiq məlumatlar).";

2.3. 7.1.6-cı yarımbəndin 3-cü abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 7.1.7-ci və 7.1.8-ci yarımbəndlər əlavə edilsin:

"7.1.7. ərzaq məhsullarının istehsalçıları və ya satıcıları:

1. qeydiyyatdan keçmək;
2. elektron kabinetdən istifadə etmək;
3. satınalan təşkilatların ərzaq məhsullarına tələbatlarına uyğun təkliflərini (məlumat və (və ya) sənədləri) daxil etmək;
4. satınalan təşkilatlarla ərzaq məhsullarının dövlət sifarişi ilə bağlı alqı-satqı müqaviləsini elektron sənəd formasında bağlamaq, həmin müqavilədə dəyişiklik edilməsi üçün müqavilənin digər tərəfinə müraciət etmək;
5. ərzaq məhsullarının dövlət sifarişi ilə bağlı alqı-satqı müqaviləsinə uyğun olaraq məhsulların təhvil-təslim aktını təsdiqləmək;

7.1.8. satınalan təşkilatlar:

1. qeydiyyatdan keçmək;
2. elektron kabinetdən istifadə etmək;
3. ərzaq məhsullarına tələbatları barədə məlumatları daxil etmək;
4. ərzaq məhsullarının istehsalçıları və ya satıcıları ilə ərzaq məhsullarının dövlət sifarişi ilə bağlı alqı-satqı müqaviləsini elektron sənəd formasında bağlamaq, həmin müqavilədə dəyişiklik edilməsi üçün müqavilənin digər tərəfinə müraciət etmək;
5. ərzaq məhsullarının dövlət sifarişi ilə bağlı alqı-satqı müqaviləsinə uyğun olaraq məhsulların təhvil-təslim aktlarını təsdiqləmək.".

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 mart 2022-ci il*

# Azərbaycan ilə Almaniya arasında ikitərəfli münasibətlərin genişləndirilməsi üzrə fikir mübadiləsi aparılıb




Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Almaniya Federativ Respublikasının xarici işlər naziri Annalena Beerbok ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə ikitərəfli münasibətlərin genişləndirilməsi, enerji sahəsində əməkdaşlıq, regional təhlükəsizlik məsələləri, o cümlədən Avropa İttifaqı (Aİ) ilə əməkdaşlığın inkişafı üzrə fikir mübadiləsi aparılıb.

Görüş zamanı bu il iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunduğu vurğulanıb, ikitərəfli münasibətlərin yüksək səviyyəsindən məmnunluq ifadə edilib.

Nazir Ceyhun Bayramov regiondakı son vəziyyət, üçtərəfli bəyanatların icrası ilə bağlı məsələlər, bölgədə həyata keçirilən bərpa və yenidənqurma işləri barədə məlumat verib, habelə Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşmasına dair Azərbaycanın baxışını bölüşüb. Azərbaycanın Aİ-nin etibarlı tərəfdaşı olduğu və Avropanın enerji təhlükəsizliyində əhəmiyyətli rol oynadığı vurğulanıb.

Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər, regional və beynəlxalq təhlükəsizlik məsələləri, o cümlədən Ukraynadakı vəziyyət üzrə fikir mübadiləsi aparıblar.

# Ermənistan tərəfindən üçtərəfli Bəyanatın müddəalarının pozulması bölgədə sülh quruculuğu səylərinə xələl gətirir

Ermənistan Təhlükəsizlik Şurasının 2022-ci il 28 mart tarixli bəyanatı ilə əlaqədar bildirmək istərdik ki, bölgədə gərginliyin artmasının birbaşa səbəbi Ermənistanın üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməsidir.

Məhz Ermənistan tərəfindən üçtərəfli Bəyanatın müddəalarının pozulması bölgədə gərginliyi artırır və sülh quruculuğu səylərinə xələl gətirir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin Ermənistan Təhlükəsizlik Şurasının bəyanatına dair şərhində yer alıb.

"Beynəlxalq çəkindirmə mexanizmlərinin işə salınması məsələsi ilə əlaqədar Ermənistan rəhbərliyinin diqqətinə çatdırmaq istərdik ki, bəşəriyyət hələlik beynəlxalq hüquqdan başqa daha yaxşı beynəlxalq çəkindirmə vasitəsi düşünməyib. Ermənistan kimi bir dövlət bir tərəfdən beynəlxalq hüququ kobud şəkildə pozub, digər tərəfdən beynəlxalq çəkindirmə mexanizmindən danışa bilməz. Əgər Ermənistan Təhlükəsizlik Şurasının üzvləri ən yaxşı beynəlxalq çəkindirmə vasitəsinin nə olduğunu hələ də bilmirlərsə, o zaman biz beynəlxalq hüququn fundamental prinsiplərini, o cümlədən dövlətlərin suverenliyi və beynəlxalq sərhədlərinə hörmət, dövlətlərin daxili işlərinə qarışmamaq, beynəlxalq öhdəliklərinə riayət etmək kimi prinsipləri bir daha onlar üçün təkrar edirik, - deyə açıqlamada bildirilib.

Azərbaycan XİN bir daha xatırladıb: "İki ölkə arasında hərtərəfli sülh sazişi üzrə danışıqlara başlamaq məsələsinə gəldikdə, xatırlatmaq istərdik ki, ilk olaraq Azərbaycan tərəfi hələ bir il bundan əvvəl Ermənistanla sülh sazişinin imzalanması təklifini ən yüksək səviyyədə irəli sürüb və bir ay öncə sazişin əsaslanmalı olduğu konkret prinsipləri səsləndirib. Əgər Ermənistan tərəfi sülh sazişi məsələsini növbəti ictimai məlumatlandırma aksiyası kimi deyil, ciddi addım kimi nəzərdən keçirirsə, o zaman konkret addımlara keçməyin zamanıdır. Bir daha qeyd etmək istərdik ki, Azərbaycan öz tərəfindən buna hazırdır".

# Azərbaycan ilə Bəhreyn arasında əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri müzakirə olunub



Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Almaniyada keçirilən 8-ci Berlin enerji keçid dialoqu çərçivəsində Bəhreyn Krallığının xarici işlər naziri Abdullətif bin Rəşid əl-Zayani ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı ölkələrimiz arasında əməkdaşlığın mövcud vəziyyətindən məmnunluq ifadə edilib və perspektivlər barədə geniş fikir mübadiləsi aparılıb.

Görüşdə nazirlər iki ölkə arasında siyasi, iqtisadi, enerji və mədəni sahələrdə əməkdaşlığın daha da dərinləşdirilməsinin əhəmiyyətini vurğulayıb, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərini müzakirə ediblər. Bu xüsusda, Bəhreyn Krallığı tərəfindən beynəlxalq platformalarda, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində ölkəmizin mövqeyinin dəstəklənməsi yüksək qiymətləndirilib.

Nazir Ceyhun Bayramov həmsöhbətinə postmünaqişə dövründə bölgədə mövcud olan vəziyyət, o cümlədən azad edilmiş ərazilərdə bərpa, quruculuq, reinteqrasiya işləri barədə məlumat verib.

Görüş zamanı, həmçinin Azərbaycan Respublikası və Bəhreyn Krallığının Xarici İşlər nazirlikləri arasında məsləhətləşmələrin, iki ölkə arasında siyasi dialoqun davam etdirilməsinin əməkdaşlığın müxtəlif istiqamətləri üzrə fikir mübadiləsinin aparılması və gündəlikdəki məsələlərin müzakirəsi baxımından mühüm rol oynadığı qeyd edilib.

Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran regional və qlobal xarakterli məsələlərə dair fikir mübadiləsi aparıblar.

# Dubayda VIII Dünya Hökumətlər Sammiti keçirilir

Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində VIII Dünya Hökumətlər Sammiti keçirilir.




AZƏRTAC xəbər verir ki, sammitdə ölkəmizi əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov və başqalarından ibarət nümayəndə heyəti təmsil edir.

Tədbir dünya ölkələrinin yüksəkvəzifəli məmurları, dövlət və hökumət başçıları, diplomatik korpus və beynəlxalq təşkilatların nümayəndələri, tanınmış ictimai-siyasi xadimlər, alimlər, ekspertlər və iş adamlarının iştirakı ilə keçirilir.

Sammit 8 mövzunu (tərəqqiyə və hökumətlərin inkişafına təkan verən siyasətlər; səhiyyə sistemlərinin gələcəyinin layihələndirilməsi; müsbət nəticələr üçün dayanıqlı fəaliyyətin təmin edilməsi; qlobal iqtisadiyyatın bərpa prosesinin sürətləndirilməsi; gələcəyin şəhərlərinin qurulması; cəmiyyətin sabitliyinin gücləndirilməsi; təhsil və əmək bazarının gələcəyi üçün imkanların yaradılması; yeni imkanların araşdırılması) əhatə edir.

Həmin mövzularda sessiya və seminarların keçirilməsi, müzakirələrin və təcrübə mübadilələrinin aparılması nəzərdə tutulub.

# Birləşmiş Ərəb Əmirlikləri ilə sosial sahədə gələcək əməkdaşlıq müzakirə olunub

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) İcma İnkişafı Nazirliyi arasında ikitərəfli əməkdaşlığın qurulması üçün geniş imkanlar mövcuddur.



Bu fikir BƏƏ-nin Dubay şəhərində keçirilən VIII Dünya Hökumətləri Sammiti çərçivəsində əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevlə BƏƏ-nin icma inkişafı üzrə naziri xanım Hessa Bint Essa Buhumaidin görüşündə vurğulanıb.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Azərbaycanla BƏƏ arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu vurğulayan S.Babayev siyasi, iqtisadi və digər sahələrdə, o cümlədən bərpa olunan enerji istehsalı sahəsində uğurlu əməkdaşlıq təcrübəsinin mövcud olduğunu diqqətə çatdırıb. H.B.E.Buhumaidin 2019-cu ilin iyununda Azərbaycana etdiyi səfəri məmnunluqla qeyd edən nazir ölkəmizdə sosial sahədə aparılan islahatlar, sosial təminat sisteminin innovativ yanaşmalar, müasir və şəffaf iş mexanizmləri əsasında təkmilləşdirilməsi işləri barədə məlumat verib.

Dövlət sosial xidmətlərinin əhaliyə "bir pəncərə"dən, operativ, şəffaf və vətəndaş məmnunluğuna uyğun təqdim edilməsinə imkan verən DOST layihəsini, həmçinin nazirliyin e-infrastruktur üzərindən proaktiv xidmətlərin qurulması təcrübəsini qeyd edib.

Əmək, məşğulluq, sosial müdafiə sahələrində tətbiq olunan innovativ yeniliklərdən, aktiv əmək bazarı proqramlarının genişləndirilməsi işlərindən də bəhs edib.

BƏƏ-nin icma inkişafı üzrə naziri ölkəsinin Azərbaycanla dostluq münasibətləri üzərində ikitərəfli əlaqələrinin daim inkişaf etdiyini vurğulayıb. Sosial sahədə də qarşılıqlı fayda verən uğurlu əməkdaşlıq təcrübəsinin formalaşdırılmasının məqsədəuyğun ola biləcəyini qeyd edib.

Görüşdə iki nazirlik arasında əməkdaşlığın qurulması, həmçinin bu əməkdaşlıq üçün müqavilə-hüquq bazasının yaradılması imkanları müzakirə olunub.

# *Sahibə QAFAROVA:* “Ermənistandan üçtərəfli Bəyanat çərçivəsində öhdəliklərini yerinə yetirməsini gözləyirik”






Qazaxıstan Respublikasına işgüzar səfəri çərçivəsində Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarova martın 29-da MDB Parlamentlərarası Assambleyası (PA) Şurasının Almatı şəhərində keçirilən MDB PA-nın 30 illiyinə həsr olunmuş iclasında çıxış edib.

AZƏRTAC xəbər verir ki, Milli Məclisin Sədri Sahibə Qafarova əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyevin tədbir iştirakçılarına müraciətini oxuyub.

Sonra Sahibə Qafarova müzakirə olunan mövzu ilə bağlı çıxış edib. Tədbir iştirakçılarını Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyasının yaradılmasının 30 illiyi münasibətilə təbrik edən Milli Məclisin Sədri təşkilata bundan sonra da inkişaf arzularını ifadə edib.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, Parlamentlərarası Assambleya siyasi, hüquqi, iqtisadi, humanitar və digər sahələrdə qanunvericilik fəaliyyətində təcrübə mübadiləsi üçün əlverişli məstəvidir. Sahibə Qafarova qeyd edib ki, son iki ildə dünyanı bürümüş pandemiyaya baxmayaraq, Milli Məclis Parlamentlərarası Assambleya çərçivəsində fəaliyyətini davam etdirib, Azərbaycan nümayəndə heyətinin üzvləri təşkilatın onlayn və əyani tədbirlərində iştirak edib, ayrı-ayrı komissiyaların rəhbərliyində təmsil olunublar.

Milli Məclisin Sədri çıxışında Azərbaycan ərazilərinin Ermənistan işğalından azad edilməsi nəticəsində Cənubi Qafqazda yaranmış yeni reallıqlar haqqında da məlumat verib. Bildirib ki, bu gün postmünaqişə dövründə regionda sülh və əməkdaşlıq üçün yeni perspektivlər yaranıb. Ölkəmiz sülh tərəfdarı kimi Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladıqları 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın yerinə yetirilməsinə sadiqdir. Biz Ermənistandan da həmin bəyanat çərçivəsində üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsini gözləyirik. S.Qafarova deyib ki, Ermənistan konstruktiv yanaşma göstərməli, münasibətlərin ölkələrin suverenliyinin, ərazi bütövlüyünün və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının qarşılıqlı surətdə tanınması, eləcə də regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa edilməsi əsasında normallaşmasına çalışmalıdır. Bu, regionda real sülhə və sabitliyə nail olmaq üçün yeganə yoldur.

Milli Məclisin Sədri Sahibə Qafarova Ermənistan parlamentinin sədri Simonyanın iclasda iştirakını nəzərə alaraq xatırladıb: “Biz Ermənistandan Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş 4 minə yaxın azərbaycanlının taleyi barədə hələ də cavab gözləyirik”.

## Milli Məclisin Sədri Sahibə Qafarova Ermənistan parlamentinin spikerinin iddialarına cavab verib

Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova Qazaxıstan Respublikasının Almatı şəhərində keçirilən MDB PA Şurasının iclasında Ermənistan parlamentinin spikeri Alen Simonyanın iddialarına cavab verib.




AZƏRTAC xəbər verir ki, Milli Məclisin Sədrindən sonra çıxış edən A.Simonyan guya Azərbaycanın atəşkəs rejimini pozması haqqında iddialar irəli sürüb. Azərbaycan parlamentinin rəhbəri Sahibə Qafarova isə yenidən söz alaraq bildirib ki, Ermənistan spikerinin iddiaları həqiqətə uyğun deyil. Azərbaycan Müdafiə Nazirliyi artıq bəyan edib ki, ölkəmizin suveren ərazisi olan Qarabağda mövqelərin və dislokasiya yerlərinin dəqiqləşdirilməsi aparılır. Lakin buna baxmayaraq, martın 26-sı səhər saatlarında qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri Azərbaycan Ordusunun bölmələrinə qarşı təxribat törətməyə cəhd göstərib. Dərhal görülən tədbirlər nəticəsində qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri geri çəkilməyə məcbur edilib.

Milli Məclisin Sədri bir daha qeyd edib ki, Azərbaycan 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata sadiqdir. Lakin həmin bəyanatın 4-cü bəndinə uyğun olaraq, Ermənistan ordusunun qalıqlarının və qeyri-qanuni erməni silahlı dəstələrinin Azərbaycan ərazilərindən tam olaraq çıxarılması indiyə qədər icra edilməyib. Buna görə də bəyanatın müddəalarını pozan Azərbaycan deyil, məhz Ermənistandır.

Sahibə Qafarova həmçinin deyib ki, Azərbaycan ərazisində “Dağlıq Qarabağ” adlı inzibati ərazi vahidi yoxdur.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, Azərbaycan üçtərəfli bəyanata uyğun olaraq bütün hərbi əsirləri Ermənistana təhvil verib. 2020-ci il 10 noyabr tarixli Bəyanat imzalandıqdan sonra Azərbaycan ərazisinə daxil olan erməni hərbi birləşmələrinin üzvləri Cenevrə Konvensiyasına uyğun olaraq hərbi əsir kimi tanınmır.

Sahibə Qafarova bir daha bəyan edib ki, Azərbaycan münasibətlərin normallaşması ilə bağlı Ermənistana 5 maddədən ibarət sənəd göndərib və qarşı tərəfdən cavab gözləyir.

## Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının Sədri Valentina Matviyenko ilə görüşüb

Milli Məclisin Sədri Sahibə Qafarova Qazaxıstan Respublikasına işgüzar səfəri çərçivəsində Almatı şəhərində Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının Sədri Valentina Matviyenko ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə müxtəlif sahələri əhatə edən Azərbaycan-Rusiya münasibətlərinin vacib istiqamətlərindən biri kimi, parlamentlərarası əlaqələrin mövcud vəziyyəti və gələcək perspektivləri barədə fikir mübadiləsi aparılıb. Bu çərçivədə parlamentlərin qarşılıqlı maraq doğuran məsələlər üzrə əməkdaşlığı mühüm əhəmiyyət kəsb edir. Bildirilib ki, həm Milli Məclisdə, həm də Federal Məclisdə fəaliyyət göstərən dostluq qruplarının, həmçinin Milli Məclis və Federal Məclis arasında daimi fəaliyyət göstərən ikitərəfli parlamentlərarası komissiyanın fəaliyyəti təqdirəlayiqdir.

Parlamentlərin xalqlar arasında oynadığı körpü roluna istinadən iki ölkə arasında humanitar əlaqələr də müzakirə mövzusu olub. Görüş zamanı humanitar sahədə əməkdaşlığın cari vəziyyətindən məmnunluq ifadə edilib, bu istiqamətdə həyata keçirilən layihələrin əhəmiyyəti vurğulanıb. Bu mənada, Rusiyada Azərbaycan Mədəniyyət Günlərinin keçirilməsinin, Rusiya və Azərbaycanın gənclər təşəbbüslərinin I Forumunun təşkilinin insanlar arasında əlaqələrin gücləndirilməsi baxımından faydalı olduğu bildirilib.

Görüşdə iqtisadi-ticari əlaqələr də müzakirə olunub. Ötən ilin sonunda qarşılıqlı ticarət dövriyyəsinin 16 faiz artaraq 3 milyard ABŞ dollarından çox olması mühüm göstərici kimi qeyd edilib. İnvestisiya, nəqliyyat, turizm, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın əhəmiyyətinə toxunulub.

Həmçinin regionlararası əməkdaşlığın və bu istiqamətdə təşkil olunan forumların praktiki layihələrin reallaşdırılması baxımından ikitərəfli əlaqələr çərçivəsində xüsusi yer tutduğu vurğulanıb.

Milli Məclisin Sədri Sahibə Qafarova görüşdə Vətən müharibəsində ölkəmizin əldə etdiyi qələbədən sonra regionda yeni yaranmış vəziyyət, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirdiyi genişmiqyaslı quruculuq işləri barədə də məlumat verərək qeyd edib ki, Azərbaycan 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata sadiqdir. Lakin həmin bəyanatın 4-cü bəndinə uyğun olaraq, Ermənistan ordusunun qalıqlarının və qeyri-qanuni erməni silahlı dəstələrinin Azərbaycan ərazilərindən tam olaraq çıxarılması indiyə qədər icra edilməmişdir. Spiker regionda davamlı sülh və təhlükəsizliyin təmin olunması üçün bəyanatda nəzərdə tutulan bütün prinsiplərin yerinə yetirilməsinin vacibliyini bir daha qeyd edib.

Görüşdə Sahibə Qafarova Rusiya Dövlət Dumasının deputatı Mixail Delyaginin Azərbaycan haqqında səsləndirdiyi qərəzli fikirlərlə bağlı etirazını Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının Sədri Valentina Matviyenkonun diqqətinə çatdırıb.

Valentina Matviyenko məsələnin araşdırılacağını və müvafiq addımlar atılacağını qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

## İƏT Ombudsmanlar Assosiasiyasının iclasında Ermənistanın beynəlxalq hüququn norma və prinsiplərini pozmasından danışılıb

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Mərakeş Krallığının Rabat şəhərində rəsmi səfərdədir.



Ombudsman Aparatının Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfərin məqsədi İslam Əməkdaşlıq Təşkilatı Ombudsmanlar Assosiasiyası (İƏT OA) İdarə Heyətinin növbəti iclasında iştirak etməkdir.

Hibrid formatda keçirilən iclasın ilk günü assosiasiyanın fəaliyyəti, ombudsman institutlarının rolunun gücləndirilməsi ilə bağlı prioritet məsələlər müzakirə edilib.

İclasda ombudsman Səbinə Əliyeva məruzə ilə çıxış edərək silahlı münaqişələrin insanların hüquq və azadlıqlarına təsiri, Ermənistanın ölkəmizə qarşı uzunmüddətli hərbi təcavüzü nəticəsində beynəlxalq hüququn norma və prinsiplərinin pozulması, münaqişə və postmünaqişə dövründə Azərbaycan Ombudsmanının həyata keçirdiyi faktaraşdırıcı missiyaların nəticələri barədə geniş məlumat verib.

Sonra ombudsman Səbinə Əliyeva assosiasiya prezidentinin rəhbərlik etdiyi nümayəndə heyətinin ötən il Azərbaycanın işğaldan azad olunan ərazilərində müstəqil araşdırmalar həyata keçirdiyini, beynəlxalq humanitar prinsiplərin pozulması ilə bağlı çoxsaylı faktların əldə edildiyini diqqətə çatdırıb.

Çıxış zamanı İƏT-ə üzv ölkələrin ombudsman təsisatlarının imkanlarını gücləndirmək məqsədilə assosiasiya tərəfindən təşkil olunan təlimlərin əhəmiyyətinə diqqət çəkilib, belə təlimlərin davam etdirilməsinin vacibliyi vurğulanıb.

Yekunda ombudsman S.Əliyeva assosiasiyanın fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı bir sıra təkliflər irəli sürüb, mövzular üzrə müzakirələr aparılıb.

Xatırladaq ki, səfər çərçivəsində ombudsmanın Mərakeş Krallığının dövlət rəsmiləri ilə görüşləri də nəzərdə tutulub.

## Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Gəncə şəhərində vətəndaşlarla görüşüb

Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərlərinin 2022-ci ilin mart ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov Gəncə şəhərində vətəndaşları qəbul edib.

Agentliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata əsasən, qəbuldan əvvəl AAYDA-nın İdarə Heyətinin sədri Saleh Məmmədov və Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, abidə önünə gül dəstələri düzərək Ulu Öndərin əziz xatirəsinə ehtiramlarını bildiriblər.

Daha sonra Gəncə şəhərinin Heydər Əliyev Mərkəzinin inzibati binasında keçirilən qəbulda Gəncə şəhərindən, Samux və Kəlbəcər rayonlarından olan vətəndaşların müraciət və şikayətləri dinlənilib.

Qəbul zamanı müraciətlər əsasən avtomobil yollarının təmir-bərpası və yenidən qurulması, işə qəbul və digər məsələlərlə bağlı olub. Qəbulda hər bir vətəndaşın müraciəti dinlənilib, şikayətlərin qısa müddətdə araşdırılması və zəruri tədbirlərin görülməsi barədə aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verilib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, müraciətlərin bir qismi isə nəzarətə götürülüb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edib, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

## Yeni neft sazişi ilə bağlı qanun layihəsi hazırlanıb

Martın 29-da Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin iclası keçirilib.

Tədbiri açan komitə sədri Sadiq Qurbanov bildirib ki, iclasın müzakirəsinə “Azərbaycan Respublikasında Buzovna-Maştağa, Qala və Zirə neft yataqlarının daxil olduğu blokun bərpası və işlənməsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə “GL İnternational LTD” MMC arasında Risk Xidmət Sazişinin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə” qanun layihəsi çıxarılıb.

Qanun layihəsi barədə qısa məlumat verən komitə sədri sənədin iqtisadi əhəmiyyətindən söz açıb, sazişdə göstərilən neft yataqlarının istismar tarixinə toxunub. O, layihənin yerli investisiyanın cəlb edilməsi, yerli şirkətlərin və kadrların inkişafı, yeni texnologiyaların tətbiqi kimi üstünlüklərindən bəhs edib.

Sonra SOCAR Upstream MMC-nin qrup rəhbəri Tural Mahmudlu 2021-ci il dekabrın 14-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə “GL İnternational LTD” MMC arasında bağlanan saziş əsasında Buzovna-Maştağa, Qala və Zirə neft yataqlarının daxil olduğu blokun bərpası və yenidən işlənməsinin parametrləri barədə məlumat verib. Sazişdə nəzərdə tutulan işlər, onların yerinə yetirilməsi qaydaları və müddətləri barədə izahat verib. Tural Mahmudlu sazişin həyata keçiriləcəyi aralıq dövrü (ilk 24 ay) və hasilat dövründə (aralıq dövründən sonrakı 25 il) həyata keçiriləcək iş proqramlarını, hasilatın artırılması və bölgüsü, kəşfiyyat işlərinin aparılması, Azərbaycan vətəndaşlarının işlə təmin olunması və kadr hazırlığı kimi məsələlərlə bağlı podratçının götürdüyü öhdəlikləri deputatların diqqətinə çatdırıb.

Qanun layihəsinin müzakirəsində Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi sədrinin müavini Asim Mollazadə, komitə üzvləri İltizam Yusifov, Məşhur Məmmədov, Nəsib Məhəməliyev, Fatma Yıldırım çıxış ediblər, sənədlə bağlı fikirlərini bildiriblər.

Deputatlar sənədi Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və bu gün cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən neft strategiyasının tərkib hissəsi kimi xarakterizə ediblər. Deputatlar sazişi köhnə yataqların bərpası və yenidən işlənməsi, müasir standartların tətbiqi və hasilatın artırılması, kadr və peşə hazırlığının nəzərdə tutulması baxımından yüksək dəyərləndiriblər. Onlar hazırda yataqların istismarı ilə məşğul olan idarənin işçilərinin işlə təmini, ətraf mühitin qorunması kimi məsələlərin necə həll olunması ilə də maraqlanıblar.

SOCAR Upstream MMC-nin icraçı direktorunun müavinləri Davud Yaqubov və Əli Cəfərli, qrup rəhbəri Tural Mahmudlu deputatların səsləndirdikləri suallara aydınlıq gətiriblər.

Müzakirələrin sonunda komitə üzvləri qanun layihəsini Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə ediblər.

***Aydan XƏLİLOVA,***
***“Azərbaycan”***



# Dünyanın ehtiramla yanaşdığı lider

Əvvəli 1-ci səh.

Fəxarət hissi ilə qeyd etmək istərdim ki, dövlətimizin bütün bu uğurlarını qətiyyətlə xalqımıza yaşadan Prezident İlham Əliyev dünyanın nüfuzlu siyasi liderləri arasında yer alıb. Təkcə bu ilin mart ayı ərzində Prezident İlham Əliyevə aparıcı siyasi mərkəzlərin rəhbərləri tərəfindən edilən telefon zəngləri və ünvanlanan məktublar bunu bir daha təsdiqləyir. Martın 14-də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin, martın 15-də isə Amerika Birləşmiş Ştatlarının dövlət katibi Entoni Blinkenin Prezident İlham Əliyevə zəng etmələri Azərbaycanın qlobal məsələlərdəki fəal mövqeyinin beynəlxalq səviyyədə qəbul olunmasının təcəssümü idi. Bu zənglər həm də onu göstərir ki, dünyanın güc mərkəzləri Prezident İlham Əliyevin qlobal təhlükəsizliyə verdiyi töhfələri, bu istiqamətdəki təşəbbüslərini və liderliyini yüksək qiymətləndirirlər.

Martın 20-də isə Amerika Birləşmiş Ştatlarının Prezidenti Co Bayden Prezident İlham Əliyevə Novruz bayramı münasibətilə təbrik məktubu ünvanlayıb. Əməkdaşlığa sadiq olduqlarını qeyd edən ABŞ Prezidenti məktubunda ortaq təhlükəsizlik narahatlıqlarını həll etmək, regional barışığı təşviq etmək və iqtisadi əməkdaşlıq üçün yeni imkanları araşdırmaq məqsədilə Azərbaycanla birgə işləyəcəklərini bəyan edib.

Qeyd edim ki, bərabərhüquqlu tərəfdaşlıq prinsiplərinə əsaslanan Azərbaycan-ABŞ münasibətləri bu gün müxtəlif sahələri əhatə edir. Siyasi, iqtisadi və digər sahələrdə iki dövlət arasında əməkdaşlıq formatları mövcuddur. Demokratları və respublikaçıları təmsil etməsindən asılı olmayaraq ABŞ-a rəhbərlik etmiş bütün prezidentlər və onların administrasiyaları Azərbaycanla münasibətlərə daim ehtiramla yanaşıb, beynəlxalq enerji təhlükəsizliyi və terrorçuluqla mübarizədə Prezident İlham Əliyevin verdiyi töhfələri və dəstəyi yüksək qiymətləndiriblər.

Co Baydenin hələ ABŞ-ın vitse-prezidenti kimi Prezident İlham Əliyevlə təmasları olmuşdu. 2016-cı il martın sonunda Nüvə Təhlükəsizliyi Sammitində iştirak etmək üçün ABŞ-a səfər edən Prezident İlham Əliyev Vaşinqtonda Co Baydenlə görüşmüşdü. Həmin ilin mayında isə vitse-prezident Co Bayden Prezident İlham Əliyevə zəng etmişdi. Co Baydenin ABŞ Prezidenti seçilməsindən sonra rəsmi Bakı ilə Ağ Ev arasında yüksəksəviyyəli təmas olmayıb. Lakin bu ay Prezident İlham Əliyevə dövlət katibi Entoni Blinkenin telefon zəngi və Co Baydenin ünvanladığı məktub göstərdi ki, ABŞ rəhbərliyi Azərbaycanla münasibətlərin daha da inkişafında maraqlıdır.

Bütövlükdə Prezident İlham Əliyevə ABŞ və Aİ rəhbərlərinin məktub və zəngləri dövlətimizin başçısının həyata keçirdiyi siyasətin dünyanın aparıcı gücləri tərəfindən ehtiramla qarşılanmasının və qəbul edilməsinin göstəricisidir. Eyni zamanda bütün bunlar Azərbaycanın regionda və dünyada nüfuzlu söz sahibi olan dövlətlərdən biri kimi çıxış etməsini təsdiq edən mühüm siyasi faktordur.

**_Könül NURULLAYEVA,_**
**_Milli Məclisin deputatı_**

# Siyasi iradə və iqtisadi gücün yaratdığı reallıq

Əvvəli 1-ci səh.

Müharibədən sonra baş verən hadisələr bu torpaqların kimə məxsus olduğunu bir daha təsdiqlədi. 30 il ərzində daşı daş üstündə qoymayan erməni vandallarının faşist xislətini dünya gördü.

Azərbaycan dövləti cəmi il yarım ərzində Qarabağ və Şərqi Zəngəzurda gerçəkləşdirdiyi layihələrlə dünyanın diqqətini cəlb edir. Bütün Qarabağ və Şərqi Zəngəzur bölgəsində çox genişmiqyaslı abadlıq işləri aparılır, şəhərlər yenidən qurulur, kəndlər salınır.

## 2 açılış, 3 təməlqoyma mərasimləri, 1 təqdimat

Suqovuşana səfəri zamanı Prezidentin açılışını etdiyi, təməlini qoyduğu, tikinti işləri ilə tanış olduğu obyektlər də bunu bir daha təsdiqləyir.

Dövlət başçısı Suqovuşan qəsəbəsində Müdafiə Nazirliyinin yeni yaradılmış "N" saylı hərbi hissəsinin açılışını edib, eləcə də Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası tərəfindən təşkil edilən ilk avarçəkmə təlim-məşq toplantısının rəsmi açılış mərasimində olub.

Dövlət başçısı turizmin inkişafı konsepsiyası əsasında yaradılacaq turizm kompleksinin, yeni tikiləcək məscidin, orta məktəb binasının təməllərini qoydu. "Azərişıq" ASC tərəfindən Azərbaycanda ilk dəfə Suqovuşan qəsəbəsinə çəkilmiş 35 kilovoltluq müasir izolyasiyalı, kənar təsirlərdən mühafizəli və istismar xərcləri daha az olan kabel xəttinin təqdimatında iştirak etdi.

Suqovuşan Turizm Kompleksində işlər cari ilin sonunadək başa çatdırılacaq, növbəti mövsümdə turistlərə xidmət göstərəcək. Görülən işlər sübut edir ki, çox füsunkar, təkrarolunmaz təbiəti olan və tarixi abidələrlə zəngin Qarabağ bölgəsi tezliklə Azərbaycanın əsas turizm zonalarından birinə çevriləcək.

Göründüyü kimi, abadlıq və quruculuq işləri Suqovuşan qəsəbəsində də geniş vüsət alıb. Prezident də xüsusi olaraq qeyd etdi ki, Suqovuşan qəsəbəsində yaşayış binalarının bərpası, turizm zonalarının yaradılması, Bütövlükdə həm Qarabağda, həm də Şərqi Zəngəzurda quruculuq, abadlıq işləri planlı şəkildə aparılır: "Biz elə etməliyik ki, qısa müddət ərzində ancaq böyük səmərə ilə və böyük keyfiyyətlə 10 min kvadratkilometrdən çox olan ərazini yenidən quraq. Çünki mənfur düşmən işğal dövründə bütün şəhərlərimizi, kəndlərimizi yerləyeksan edib, bütün tarixi abidələrimizi dağıdıb, təhqir edib. Biz isə qurub-yaradan xalqıq".

Həqiqət göz önündədir. İlyarım öncə işğaldan azad edilən ərazilərimizə səfər edərkən hər kəs ürəkdağlayan mənzərəyə şahidlik edirdi. Bu gün isə Azərbaycan dövləti yalnız öz hesabına, heç kimdən, yəni heç bir maliyyə təşkilatından yardım almadan bu torpaqlarda xariqələr yaradır. Hava limanları, dəmir və avtomobil yolları, yaşayış məskənləri, körpü və tunellər, eləcə də Zəngəzur dəhlizinin bərpası dövlətin qüdrətinin göstəricisidir.

Müharibədən cəmi bir ildən bir qədər çox vaxt keçməsinə baxmayaraq Azərbaycan qurub-yaradır. Bütün bunlar hər kəsdə əminlik yaradır ki, tezliklə bütün planlar, nəzərdə tutulmuş məqsədlər reallaşacaq və dünya Azərbaycanın iqtisadi qüdrətinə bir daha şahidlik edəcək.

Prezident bildirdi ki, Azərbaycanın reallıqları göz önündədir. Bu günkü güclü Azərbaycan bütün işləri görməyə qadirdir. Ortada siyasi iradə, iqtisadi güc və milli həmrəylik var. Şanlı zəfər hər birimiz üçün qürur mənbəyidir.

İstənilən xalq və onun yaratdığı dövlət siyasi, iqtisadi və digər cəhətlərdən nə qədər möhkəm, qüdrətli olarsa, onun həyata keçirdiyi siyasətin müstəqillik elementləri də o dərəcədə güclü olar. Bu gün Azərbaycan müharibədən sonra yaranmış yeni reallıqlara uyğun addım atmaqla dünyaya gücünü, qüdrətini, nəyə qadir olduğunu nümayiş etdirir.

Müzəffər Ali Baş Komandan İlham Əliyev 2022-ci ildə də Qarabağı və Şərqi Zəngəzuru quruculuğun baş meydanına çevirib. Qlobal böhranın dünya iqtisadiyyatına mənfi təsir etdiyi dönəmdə belə Azərbaycan öz gücünə işğaldan azad edilən torpaqlarında yenidənqurma, tikinti-quruculuq işləri aparır, həmçinin digər bölgələrində də dövlət proqramında əksini tapmış layihələri gerçəkləşdirir.

Bütün proseslərə nəzarət edən Prezident mütəmadi olaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən layihələrə şəxsən nəzarət edir, müxtəlif yeni obyektlərin təməlini qoyur.

İlham Əliyevin Suqovuşanda Novruz tonqalını yandırması düşmənə bir daha gözdağı verdi, hər birimizin ürəyini dağa döndərdi.

**_Rəşad BAXŞƏLİYEV,_**
**_"Azərbaycan"_**

# Daim yeniləşən Azərbaycan naminə

Azərbaycan xalqını və dövlətini qurtuluşdan tərəqqiyə, tərəqqidən zəfərə çatdıran Yeni Azərbaycan Partiyası (YAP) bu yaxınlarda təkcə sonrakı fəaliyyəti üçün deyil, həm də ölkəmizin bu günü və sabahı üçün də mühüm əhəmiyyət kəsb edən vacib bir sənəd qəbul etdi. Söhbət ölkəmizin müstəqilliyinin, yenicə bərpa olunmuş ərazi bütövlüyünün möhkəmlənməsinə, müdafiə qüdrətinin artırılmasına xidmət edəcək hakim partiyanın İdarə Heyətinin qərarı ilə təsdiq olunan yeni proqramdan gedir.

İndiyə qədər qəbul olunmuş iki proqramda siyasi, iqtisadi, elmi, mədəni, sosial hədəflərə nail olunması, xüsusən ölkəmizin ərazi bütövlüyünün bərpa olunması ilə nəticələnən 44 günlük zəfərin gətirdiyi yeni reallıqlar gündən-günə yeniləşən Azərbaycan naminə hakim partiyanın yeni proqramının hazırlanmasını tələb edirdi.

Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi təmələ əsaslanaraq Cənubi Qafqazda yeni reallıqlar yaradan Azərbaycanın qarşısında dayanan hədəflərin əksini tapdığı, eləcə də YAP-ın gələcək fəaliyyət istiqamətlərini müəyyən edən beş fəsildən ibarət proqram sözün əsl mənasında mükəmməl işlənmiş yol xəritəsidir.

Proqram xalqımıza, dövlətimizə xas olan keçmiş ənənələri qoruyub saxlamaqla sivil dünyaya inteqrasiyanı özündə əks etdirir.

Proqramın əsas qayəsini təşkil edən siyasi dəyərlər və prinsiplər ilk növbədə ölkəmizin çətinliklə qazandığı və sınaqdan keçdiyi müstəqilliyinin daha da möhkəmlənməsini ehtiva edir və azərbaycançılıq ideyasının genişlənməsi, dövlətçilik ənənələrinin yaşadılması, qanunun aliliyinin hər şeydən üstün tutulması, varisliyin gözlənilməsi, konstruktiv əməkdaşlıq və dialoq əsasında təmin olunan birliyimizin daha da gücləndirilməsi, bütün məsələlərdə sosial ədalətin bərqərar olunması, insan amilinin nəzərə alınması və digər amillər əsas hədəflər kimi seçilmişdir.

Proqramda yer alan ən vacib siyasi dəyər kimi Ümummilli Liderin müəllifi olduğu azərbaycançılıq ideyası xalqımızın çoxəsrlik mədəni irsinin hərtərəfli şəkildə, dərindən öyrənilməsində və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm yer tutur. Heydər Əliyev azərbaycançılıq məfkurəsini milli ideologiya səviyyəsinə qaldırmışdır ki, onun da əsasında vətəndaş həmrəyliyinin və ümumxalq birliyinin yaradılması dayanır. Nəticə etibarilə Vətən müharibəsində bütün dünyaya nümunə kimi göstərilən "Dəmir yumruq" düşməni darmadağın etdi, ərazi bütövlüyümüzü təmin etdi.

Konstruktiv əməkdaşlıq və dialoqu siyasi dəyər və prinsip halına gətirən hakim partiyanı müxaliflərindən əsaslı şəkildə fərqləndirən və sahib olduğu dəyərlərdən biri də məhz budur. Yenə də ölkə rəhbərinin təşəbbüsü və ideya müəllifliyi ilə ərsəyə gələn, Azərbaycan Respublikası Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev tərəfindən müxtəlif siyasi, qeyri-hökumət təşkilatlarının təmsilçiləri arasında, bütövlükdə ölkəmizdə siyasi və milli həmrəyliyin yaradılması istiqamətində həyata keçirilən xidmətlər, həmçinin potensiallı gənclərin ölkənin ictimai-siyasi fəaliyyəti ilə əlaqəli işlərə önə çəkilməsi istiqamətində görülən işlər ölçüyəgəlməz əhəmiyyətə malikdir.

Sözün əsl mənasında yüksək səviyyədə yerinə yetirilən "Siyasi dialoqun Azərbaycan modeli"nin öz məntiqi nəticəsini verməsini müşahidə etmək sevindiricidir. Ola bilər ki, kənardan bu proses kimə və kimlərəsə sadə görünə bilər. Ancaq baş verənləri yaxından izləyən və ümumilikdə ölkəmizdə milli-siyasi birliyin yaradılmasında maraqlı olan ziyalılar dövlər başçısının reallaşdırdığı bu missiyanın nə qədər çətin, ağrılı və böyük zəhmət hesabına olduğunu görməmiş deyillər. Müxtəlif siyasi əqidə və fikir daşıyıcılarının arasında ortaq maraq nöqtəsinin tapılması, onları hakimiyyətə münasibətlərdə dövlətçilik maraqlarının bütün digər maraqlardan üstün tutulmasına, sağlam tənqid və qarşılıqlı hörmətlə xarakterizə olunan sivil formaya keçidin önə çəkilməsinə inandırmaq, hörmətə əsaslanan sağlam rəqabətə söykənən yeni siyasi mədəniyyətin formalaşdırılmasının hansı çətinliklər hesabına başa gəldiyini təsəvvür etmək belə sözlə ifadə ediləsi deyil.

Siyasi islahatların yeni mərhələsində sağlam rəqabətə söykənən dialoqun formalaşması üçün ölkədə fəaliyyət göstərən siyasi partiyaların rəhbərləri, QHT nümayəndələri, ictimai təşkilatların fəalları ilə Prezident Administrasiyasında fərdi, eləcə də birgə görüşlər təşkil edilməsi, onların problemlərinin dinlənilməsi, həll edilməsi ölkəmizdə siyasi-milli həmrəyliyin yaradılmasının təkcə sözdən ibarət deyil, əməli proses olduğunu əyani təsdiqləyir. Məhz 44 gün davam edən parlaq qələbəmizlə başa çatan Vətən müharibəsi dövründə ölkədəki, demək olar ki, bütün siyasi partiyaların Ali Baş Komandanın həyata keçirdiyi siyasəti dəstəkləməsi, milli birlik nümayiş etdirmələri digər bütün məsələlərlə yanaşı, həm də və ən əsası müharibədən əvvəl dövlət rəhbərinin başlatdığı və inamla davam etdirdiyi siyasi dialoqun yaradılması istiqamətində aparılan məqsədyönlü işlərin məntiqi nəticəsidir.

Ölkə rəhbərinin xoş məramla və səmimi niyyətlə ortaya qoyduğu siyasi dialoqdan boyun qaçıran bəzi siyasi qüvvələri və ölkədən kənar pozuculuq fəaliyyəti göstərən xarici dairələrin çirkin maraqlarına xidmət edən barmaqla sayılan fərdləri istisna etsək, birmənalı qeyd edə bilərik ki, uzun illərdən sonra ilk dəfə olaraq siyasi qüvvələrin mütləq əksəriyyəti arasında milli vəhdət və həmrəylik yaranıb. Artıq hakim partiyanın yenilənmiş fəaliyyət proqramına da daxil edilən konstruktiv əməkdaşlıq və dialoq əminik ki, inamla və müvəffəqiyyətlə davam edəcək, dövlətimizin qüdrətli gələcəyi naminə qarşıya qoyulan bütün hədəflərə çatmağa əməli vasitə olacaq.

Haqqında danışdığımız proqramda elmilik məsələsinin əsas götürülməsi bir alim kimi diqqətimi cəlb edən ən vacib məqamlardandır. Təbii ki, yarandığı vaxtdan indiyə qədər YAP-ın fəaliyyətinin təşkilində elmi uğurların əsas götürülməsi və elmi cəhətdən əsaslandırılmış yanaşmalara üstünlük verilməsi vacib prinsiplərdəndir. Proqramda da qeyd edildiyi kimi, *müasir dövrdə rəqəmsallaşma ictimai həyatın bütün sferalarında olduğu kimi, siyasi münasibətlər sahəsinə də innovativlik gətirir, yeni dəyərlər yaradır. Ümummilli məsələlərin həllində elmi metodologiyalara əsaslanmaq siyasi riskləri azaldır. Partiyanın mövqeyinə görə, öyrənilən və ya öyrədilən biliklərin məzmunu elmin, texnikanın inkişafı ilə yeniləşərək, təlim prosesini müasirləşdirir. Elmilik fəaliyyət meyarlarından biri kimi partiyanın inkişafını və möhkəmlənməsini nəzərdə tutur.*

Buradan belə bir nəticəyə gəlmək olar ki, YAP cəmiyyətin və dövlətin inkişafı ilə bağlı təşəbbüslər irəli sürərkən elmi yanaşmalara əsaslanır. Siyasi fəaliyyətdə peşəkarlığın artırılmasında və siyasi rəqabətin konstruktiv çərçivədə aparılmasında yüksək elmi-siyasi biliklərə malik olmaq mühüm əhəmiyyət daşıyır.

Siyasət böyük elmdir. Siyasətin elmləşməsi həyata keçirilən hər bir siyasi-iqtisadi addımın elmə söykənməli olduğunu diktə edir. Elmə əsaslanan addım isə heç vaxt yanlış ola bilməz.

**_Əfsun SUCAYEV,_**
**_Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, AMEA Aşqarlar Kimyası İnstitutunun icraçı direktoru, kimya elmləri doktoru, dosent_**



# Vətənə dönürük

## Tezliklə Qarabağ və Şərqi Zəngəzurda yeni həyat başlayacaq

Əvvəli 1-ci səh.

Dövlət başçısı İlham Əliyevin şəxsi diqqəti və nəzarəti altında işğaldan azad edilən ərazilərdə infrastruktur yenilənir, yeni yollar çəkilir, hava limanları istifadəyə verilir. Tezliklə öz doğma torpaqlarına qayıdacaq insanların yaşayışı və fəaliyyəti üçün ən müasir imkanlar yaradılır. Onların işlə təmin olunması, təhlükəsizliyi, istirahəti üçün də layihələr icra edilir.

Qarabağda və Şərqi Zəngəzurda dəmir yollarının, beynəlxalq hava limanlarının inşası isə bölgəni eyni zamanda xarici sərmayələr, həm də turizm üçün cəlbedici məkana çevirir. Həmçinin bu ərazilərdə gerçəkləşdirilən mühüm layihələrdən biri də Prezident İlham Əliyevin birbaşa təşəbbüsü və nəzarəti ilə Şərqi Zəngəzur və Qarabağ bölgəsində "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyasının həyata keçirilməsidir.

### 10 min kvadratkilometrdən çox olan ərazi yenidən qurulur

Suqovuşanda olarkən tarixi torpaqlarımızda qısa müddətdə görülən bütün genişmiqyaslı işlərlə bağlı Prezident İlham Əliyev məlumat verdi ki, bütövlükdə həm Qarabağda, həm Şərqi Zəngəzurda quruculuq, abadlıq işləri planlı şəkildə aparılır: "Biz elə etməliyik ki, qısa müddət ərzində ancaq böyük səmərə ilə və böyük keyfiyyətlə 10 min kvadratkilometrdən çox olan ərazini yenidən quraq".

Möhtəşəm qələbəmizin üzərindən ötən qısa zamanda Qarabağda və Şərqi Zəngəzurda görülən işlərin nəticəsidir ki, işğal dövründə ermənilər tərəfindən tamamilə darmadağın edilən ərazilərimiz gündən-günə sürətlə dəyişir, mənfur düşmənin viran qoyduğu yurdlarımız yenidən dirçəlir. Eyni zamanda vəhşi ermənilərin illərlə divan tutduğu tarixi, mədəni, dini irsimiz bərpa olunur, dağıdılan məscidlərimizdən yenidən azan sədaları yüksəlir. Əzəli torpaqlarımızda baş verən bu qürurverici yeniliklərin isə Prezident İlham Əliyevin birinci xanım Mehriban Əliyeva ilə birgə həmin bölgələrə səfərləri zamanı daha əyani şəkildə şahidi oluruq. Təsadüfi deyil ki, təkcə ötən il dövlət başçısı işğaldan azad edilən yurdlara 32 səfər etmiş və hər səfərində Qarabağda, Şərqi Zəngəzurda daimi həyatın var olması üçün möhkəm bünövrələr atmış, əhəmiyyətli layihələr gerçəkləşdirmişdir. Göründüyü kimi, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən bu ənənə bu il də uğurla davam edir.

### Sülhün və təhlükəsizliyin təminatçısı Azərbaycan dövlətidir

Bütün dünyanın gözü qarşısında Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən böyük quruculuq, bərpa işləri Azərbaycan xalqının yüksək əzmini, dövlətimizin böyük potensialını, Prezidentin qətiyyətini nümayiş etdirir. Xüsusilə vurğulamalıyıq ki, Azərbaycanın sərgilədiyi bu yüksək göstəricilər beynəlxalq aləmdə də heyrətlə qarşılanır. Çünki dünya müharibələrinin tarixində savaşdan sonra bu sürətlə heç bir yerdə quruculuq-bərpa işləri aparılmayıb və bu gün bu parlaq nümunənin də əsasını Azərbaycan qoyur. Həm də ölkəmiz azad olunan torpaqlarda həyata keçirdiyi bu genişmiqyaslı işləri təkbaşına, heç kimdən kömək almadan öz siyasi iradəsi və iqtisadi gücü, xalqımızın səfərbərliyi və milli həmrəyliyi sayəsində aparır.

Keçmiş məcburi köçkünlərin dədə-baba yurdlarına qayıdacaqları böyük qayıdış gününə az qalıb. Vətəndə illərlə qəribçilik çəkən o insanlar tezliklə cənnətməkan yurdlarına qovuşaraq, əmin-amanlıq içərisində əbədi xoşbəxt günlərə yol alacaqlar. Novruz bayramında tarixi yurdumuz Suqovuşana səfər edərək orada bayram tonqalı çatan Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyətlə bəyan etdiyi kimi: "Bu gün bu gözəl mənzərəli yerlərə baxdıqca bir daha görürəm, diyarımız nə qədər gözəldir, dağlarımız nə qədər əzəmətlidir. Bütün bu tarixi gözəlliyə biz gözəllik qatacağıq, zövq qatacağıq və burada azərbaycanlılar rahat yaşayacaqlar, sülh, əmin-amanlıq, təhlükəsizlik şəraitində yaşayacaqlar. Sülhün və təhlükəsizliyin təminatçısı Azərbaycan dövlətidir və Azərbaycan Silahlı Qüvvələridir".

**_Yasəmən MUSAYEVA,_**
**_"Azərbaycan"_**

# Qafqaz Müsəlmanları İdarəsində Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar tədbir keçirilib



Martın 29-da Qafqaz Müsəlmanları İdarəsində 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə və Azərbaycandakı dini konfessiyaların rəhbərləri iştirak ediblər.

Əvvəlcə Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə tədbir iştirakçılarını salamlayıb, Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib, xalqımıza və dövlətimizə uca Allahdan xeyir-dualar diləyib.

Sonra Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Tədbirin 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ərəfəsində keçirildiyini xatırladan QMİ sədri Allahşükür Paşazadə bildirib ki, bu qanlı tarix - 1918-ci ilin mart soyqırımı Bakı şəhərində və müxtəlif bölgələrimizdə daşnak erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri qırğınları ehtiva edir. Bu soyqırımı nəticəsində 12 minə yaxın azərbaycanlı qətlə yetirilib, on minlərlə insan itkin düşüb.

Lakin erməni millətçiləri tərəfindən xalqımıza qarşı aparılan soyqırımı və təcavüz siyasətinin iki yüz ildən artıq tarixi var. XIX əsrin əvvəllərindən başlayaraq Qafqazda məqsədyönlü şəkildə kütləvi məskunlaşdırılan ermənilər az müddət sonra bölgəni, sözün əsl mənasında, "qan çanağı"na çeviriblər. Azərbaycanlılara qarşı kütləvi qətllərin və soyqırımı aktlarının törədilməsi ilə müşayiət olunan bu siyasətin məqsədi azərbaycanlıları qədim torpaqlarından sıxışdırıb çıxarmaq, bu ərazilərdə erməni tarixçilərinin və ideoloqlarının uydurduğu "böyük Ermənistan" dövləti yaratmaq idi. Bu məqsədlə Ermənistanda və ayrı-ayrı xarici dövlətlərdə dırnaqarası "milli-mədəni", dini, siyasi və hətta terrorçu təşkilatlar qurmuş, erməni diasporunun və lobbisinin imkanlarını səfərbər etmişlər. 1948-1953-cü illərdə ermənilər yüz minlərlə azərbaycanlının öz ata-baba yurdundan deportasiyasına nail oldular və faktiki olaraq Ermənistan Respublikası ərazisində monoetnik respublika yaratdılar. Görkəmli dövlət xadimi Heydər Əliyevin Siyasi Büronun rəhbərliyindən uzaqlaşdırılmasından istifadə edən erməni şovinistləri etnik təmizləmənin yeni dalğasını həyata keçirdilər - 250 mindən çox azərbaycanlının Ermənistandan amansızlıqla qovulmasına nail oldular. 1992-ci ildə erməni ekstremistlərinin qədim Xocalıda həyata keçirdikləri məqsədyönlü soyqırımı aktı isə onların törətdikləri vəhşiliklərin kulminasiya nöqtəsi oldu.

Soyqırımı və deportasiya siyasəti xalqımıza ağır maddi və mənəvi zərbələr vurmuş, onun tarixi yaddaşında silinməz izlər buraxmışdır. Bütövlükdə, 2 milyona yaxın azərbaycanlı mənfur erməni siyasətinin fəlakət və dəhşətlərini öz taleyində yaşamışdır. Azərbaycan müstəqillik qazandıqdan sonra uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulan həqiqətlər açılmış, təhrif edilən hadisələr əsl qiymətini almışdı. Ümummilli Lider Heydər Əliyev 1998-ci il martın 26-da imzaladığı fərmanla 31 Mart Azərbaycanlıların Soyqırımı Günü elan edildi.

Qafqazın tarixi-dini mərkəzi olan Qafqaz Müsəlmanları İdarəsinin Azərbaycandakı dini konfessiyalarla birgə dünya dini liderlərinə, parlamentlərinə, beynəlxalq təşkilatlara illərdir etdiyi müraciətlərdə Azərbaycan xalqına qarşı törədilmiş ədalətsizliklərə tarixi qiymətin verilməsinə, həyata keçirilmiş qətllərin bütün xalqa qarşı planlı surətdə reallaşdırılan soyqırımı həqiqətlərini dünya ictimaiyyətinə çatdırdığını deyən Şeyxülislam Allahşükür Paşazadə qeyd edib ki, bu il də birgə müraciət məqamlarına ünvanlanıb, mətbuat vasitəsilə və Xarici İşlər Nazirliyi xətti ilə dünya ictimaiyyətinin diqqətinə çatdırılıb.

"Soyqırımı kimi bəşəri cinayətlərin bir daha heç vaxt təkrarlanmaması üçün bu müraciətlər, ədalətin bərqərar olması həddən artıq vacibdir. Şükürlər olsun ki, Azərbaycan xalqı 44 günlük haqq mübarizəsi - Vətən müharibəsi nəticəsində Müzəffər Ali Baş Komandanının rəhbərliyi, qəhrəman ordusunun rəşadəti sayəsində tarixi ədaləti, ərazi bütövlüyünü bərpa etdi, Qarabağı erməni işğalından qurtardı. Azərbaycan xalqı müdrik rəhbərinin siyasi iradəsi ilə bu gün azad Qarabağda vaxtilə erməni faşistləri tərəfindən dağıdılmış mədəni-mənəvi irsini yenidən dirçəldir, tarixi abidələrinə və ziyarətgahlarına yeni həyat verir. Azərbaycan Prezidentinin və Birinci vitse-prezidentinin Qarabağa hər səfəri zamanı dövlət əhəmiyyətli obyektlərin təməlinin qoyulması ilə yanaşı, dini-mənəvi abidələrin təmir, bərpa edilməsi və yenidən qurulması ilə bağlı əsaslı layihələrin gerçəkləşdirilməsinə hamı şahiddir. Biz ölkəmizdə, bölgədə, bütün dünyada sülhün, əmin-amanlığın hökm sürməsi üçün dualar edir, səylərimizi əsirgəmirik. Bu gün Ukraynada cərəyan edən hadisələrdən narahatlığımızı ifadə edir, dinc insanların həyatlarına olan təhlükənin qarşısının alınmasını vacib sayırıq. Qocalar, qadınlar, uşaqların qaçqın taleyi yaşamasına son qoyulması, humanitar fəlakətin qarşısının alınması üçün biz dini konfessiya rəhbərləri olaraq tərəfləri nifaq və qarşıdurmanı danışıqlar vasitəsilə həll etməyə çağırırıq. Bu torpaqlarda tezliklə sülhün bərqərar olması hər birimizin istəyidir", - deyə Şeyxülislam Allahşükür Paşazadə qeyd edib.

Bildirilib ki, zaman-zaman xalqımıza qarşı etnik təmizləmə, maddi və mənəvi terroru gerçəkləşdirmiş erməni ekstremistlər qəsb etdikləri Azərbaycan torpaqlarında vandalizm aktları həyata keçirərək tarixi, dini və mədəniyyət abidələrimizi məhv ediblər. Lakin dünya birliyi, beynəlxalq təşkilatlar bu həqiqətləri görməzdən gəlməkdə davam edirlər. UNESCO mütəxəssislərinin səfəri ertələnir. Xalqımızın mədəni irsinə, dini-mənəvi abidələrinə qarşı mədəni soyqırımı həyata keçirmiş, qəbiristanlıqlarımızı yerlə-yeksan etmiş ermənilərin törətdikləri göz qabağında olduğu halda Avropa Parlamenti bu günlərdə Qarabağda guya erməni mədəni irsinin məhv edilməsi barədə qətnamə qəbul edir. Bu, Azərbaycana qarşı uzun illər davam etmiş ikili yanaşmanın daha bir mənfur nümunəsidir. Avropa Parlamentinin martın 10-da Azərbaycanla bağlı qəbul etdiyi, tamamilə əsassız ittiham və tələblərin əks olunduğu qərəzli qətnamə beynəlxalq hüquq prinsiplərinə hörmətsizlik, ədalətin pozulmasıdır. Biz, Azərbaycandakı dini konfessiya başçıları Avropa Parlamentinin Azərbaycanla bağlı iftira xarakterli bu qətnaməsini qətiyyətlə pisləyirik.

Tədbirdə, eyni zamanda, diqqətə çatdırılıb ki, Avropa Parlamentinə ünvanlanmış bəyanatda birgə iradə ifadə edilib, Azərbaycana qarşı qəbul olunmuş bu ədalətsiz qətnamənin ləğvi tələb olunub. Bildirilib ki, İkinci Qarabağ müharibəsindən sonra bölgədə sülhə, yenidənqurmaya və birgəyaşayışa töhfə verməyə çalışmaq əvəzinə ədalətsiz yanaşmaların davam etdirilməsi qəbuledilməzdir.

Dünya ictimaiyyətinin Azərbaycanın haqlı iddialarını - ədaləti dəstəkləyən dövlətlərə və beynəlxalq qurumlara təşəkkürünü ifadə edən QMİ-nin sədri Şeyxülislam Allahşükür Paşazadə bildirib ki, bu yaxınlarda İslam Əməkdaşlıq Təşkilatının Pakistanda keçirilən tədbirində Ermənistanın Azərbaycana təcavüzünə dair qəbul olunmuş 4 qətnamə bütün dünya üçün bəşəri ədalət nümunəsidir. Həmin sənədlərdə, özəlliklə, işğal dövründə Azərbaycan ərazilərindəki İslam tarixi və mədəni abidələrinin, ziyarətgahlarının dağıdılması, talan edilməsi, oğurlanması, qanunsuz yerdəyişməsi və ya mənimsənilməsi, eləcə də bu obyektlərə qarşı vandallıq aktlarının törədilməsi qətiyyətlə pislənilib, yenicə azad olunmuş ərazilərdə yerləşən məscidlərin Ermənistan tərəfindən təhqir olunması şiddətlə qınanılıb. Qətnamədə xüsusilə Azərbaycanın ona dəymiş zərərə görə təzminat tələb etmək haqqı, Ermənistanın isə bu təzminatı ödəmək məsuliyyəti təsdiq olunub.

Vurğulanıb ki, ermənilər Qarabağda onlara məxsus olmayan tarixi-mədəni irsin guya məhv edilməsi ilə bağlı beynəlxalq aləmə yaydıqları dezinformasiyadan uzaqlaşaraq, işğal dövründə Qarabağ torpaqlarında və vaxtilə Azərbaycan torpaqlarında yaradılan indiki Ermənistanda azərbaycanlılara məxsus bütün tarixi, mədəni və dini irsi nə üçün məhv etdiklərinə dair sualları cavablandırmalı, 4 minə yaxın əsir, itkin düşmüş azərbaycanlının taleyinə aydınlıq gətirməlidirlər. Azad olunmuş ərazilərimizdə bu gün kütləvi məzarlıqlar aşkar olunur, üstü açılmamış cinayətlərin izləri üzə çıxır. Azad olunmuş ərazilərimizin ermənilər tərəfindən minalanmış vəziyyətdə olması, yandırılmış torpaq siyasəti kimi müharibə cinayəti törədilməsi səbəbindən yerli əhalinin doğma torpaqlara qayıdışı yubanır, yüzdən artıq mülki insan minalara düşərək ya həlak olur, ya ömürlük əlil qalır. Təəssüflər olsun ki, bütün bu hadisələrə Erməni Apostol Kilsəsi nəinki susur, qınamır, əksinə, revanşizm əhvali-ruhiyyəsini daha da alovlandırır. Avropa Parlamenti isə nüfuzlu beynəlxalq qurum olaraq, heç şübhəsiz ki, məhz bu reallıqlara dair öz prinsipial mövqeyini nümayiş etdirməlidir.

Sonra Azərbaycandakı dini konfessiyaların rəhbərlərinin Avropa Parlamentinin qərəzli qətnaməsinə etiraz bəyanatı səsləndirilib.

# Azərbaycandakı dini konfessiyaların rəhbərləri Avropa Parlamenti tərəfindən qəbul olunmuş anti-Azərbaycan qətnamə ilə bağlı birgə bəyanat yayıblar

Azərbaycanda fəaliyyət göstərən müsəlman, pravoslav, alban-udi və yəhudi konfessiyalarının rəhbərləri 2022-ci il martın 10-da Avropa Parlamenti tərəfindən anti-Azərbaycan qətnamənin qəbul edilməsi ilə bağlı birgə bəyanatla çıxış ediblər.

Bu barədə AZƏRTAC-a Qafqaz Müsəlmanları İdarəsinin Mətbuat xidmətindən məlumat verilib.

Bəyanatda deyilir: "Biz, Azərbaycanda fəaliyyət göstərən müsəlman, pravoslav, alban-udi və yəhudi konfessiyalarının rəhbərləri dindarlarımızın arzu və iradəsini ifadə edərək, 2022-ci il martın 10-da Avropa Parlamenti tərəfindən anti-Azərbaycan qətnamənin qəbul edilməsi ilə bağlı birgə bəyanat imzalayaraq bununla bağlı dərin narahatlığımızı bildirir, göstərilən sənədin ikili standartlara və islamofobiya meyillərinə məruz qalan və ermənipərəst siyasəti müdafiə edən mövqenin ifadəsi kimi dəyərləndiririk. Birmənalı şəkildə bildiririk ki, qətnamənin mətnində yer almış fikirlər yanlışdır, böhtan xarakteri daşıyır və tamamilə qəbuledilməzdir.

Nəinki Avropa Parlamentinin nümayəndələri, bütün dünya bilməlidir ki, Ermənistandan fərqli olaraq, Azərbaycanda, onun paytaxtında və bölgələrdə müxtəlif millətlərin və dinlərin nümayəndələri, o cümlədən minlərlə erməni əsilli vətəndaş sülh və əmin-amanlıq şəraitində dinc yaşayır, Bakının mərkəzində erməni kilsəsi, onun kitabxanası lazımi şəraitdə saxlanılır və dövlət tərəfindən tarixi-dini abidə kimi qorunur. Bununla belə, Azərbaycanın 30 ilə yaxın müddətdə işğal olunmuş ərazilərində məscidlər, məbədlər, qəbiristanlıqlar, tarixi abidələr, muzeylər, kitabxanalar dağıdılıb, talan edilib, qədim Qafqaz Albaniyasına məxsus xristian kilsələri və Rus Pravoslav kilsələri özününküləşdirilib, məscidlər tövləyə çevrilib, orada İslam dinində haram sayılan heyvanlar saxlanılaraq bütün müsəlman dünyası təhqir olunub.

Biz, Azərbaycandakı müxtəlif etnik və dini icmaların nümayəndələri Qarabağ torpaqları azad edildikdən sonra həmin ərazilərə səfərlərimiz zamanı orada Ermənistan tərəfindən tarixi və mədəni abidələrə, xüsusən müsəlman məscidlərinə və mövcud olmuş infrastruktura Ermənistan tərəfindən törədilmiş vandalizmin, qədim alban xristian və pravoslav kilsələrinə qarşı qriqorianlaşdırma siyasətinin həyata keçirildiyinin canlı şahidləriyik.

Sizə yaxşı məlumdur ki, Ermənistan 30 ilə yaxın müddət ərzində BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri, Cenevrə Konvensiyası, Helsinki Yekun Aktının əsas müddəalarını kobud şəkildə pozaraq, Azərbaycanın dünya birliyi tərəfindən tanınmış ərazisinin 20 faizini hərbi işğala məruz qoyub, bir milyondan artıq azərbaycanlı Ermənistandakı və Qarabağdakı doğma ocaqlarından didərgin düşərək qaçqın və məcburi köçkün taleyini yaşamağa məcbur olublar.

Ermənistan öz ərazisindəki tarixi Azərbaycan dini abidələrini, İrəvan məscidləri olan Şah Abbas, Sərdar, Hacı Novruz Əli və digər mədəni-mənəvi irs nümunələrini, nadir memarlıq abidələrini tamamilə dağıdıb, İrəvanın mərkəzində yeganə salamat qalan Göy məscidin orada "baş verən" yanğından sonra memarlıq xüsusiyyətlərini qəsdən dəyişdirib. Azərbaycanlılara məxsus mədəni-mənəvi irsin dağıdılması ilə bərabər, Ermənistan Şuşadakı Vəftizçi Yəhya pravoslav kilsəsini, digər bölgələrdəki qədim alban kilsələrini qəsb edib, mənşəyini dəyişdirərək qriqorianlaşdırıb, Xocavənd pravoslav kilsəsini tamamilə məhv edib.

Azərbaycan beynəlxalq hüquq normalarına uyğun olaraq öz ərazi bütövlüyünü bərpa etdikdən sonra erməni tərəfi bütün dünyaya aşılamağa çalışır ki, guya onlar Azərbaycan tərəfindən təcavüzə məruz qalıblar. Əslində isə keçmiş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi qonşu ölkənin ərazisini işğal etmək məqsədilə Ermənistan tərəfindən başlanmış və onlar bu münaqişənin müsəlman-xristian qarşıdurması olması barədə həqiqətə uyğun olmayan yalanlar yayaraq, özlərini məzlum xalq kimi təqdim edir, bununla da xristian aləminin təəssübkeşliyini qazanmağa çalışır. Təəssüf ki, öz işğalçı niyyətlərini, özgə torpaqlarına ərazi iddialarını ört-basdır etmək üçün erməni təbliğatı müxtəlif vasitələrdən, o cümlədən dini amildən də fəal surətdə istifadə etməkdədir.

Buna görə də biz Zati-Müqəddəsləri Roma Papası Fransisk, Zati-Müqəddəsləri Moskva və bütün Rusiya Patriarxı Kirill, digər dini liderlərə və beynəlxalq təsisatlara müraciət edərək din xadimlərindən ibarət nümayəndə heyətlərini işğaldan azad olunmuş torpaqlarımızda erməni vandalizminin dəhşətli nəticələrini öz gözləri ilə görmək məqsədilə Azərbaycana səfərə dəvət etmişik.

Erməni işğalı nəticəsində minlərlə tarix və mədəniyyət abidələri, kitabxanalar, mədəniyyət mərkəzləri, yaşayış binaları, məktəblər, muzeylər, sənət qalereyaları və teatrlar, ziyarətgahlar və qəbiristanlıqlar məhv edilib və talan olunub. Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində rəsmi qeydiyyatda olmuş 67 məsciddən 64-ü tamamilə dağıdılmış, 3-ü isə acınacaqlı vəziyyətdədir. Bir vaxtlar inkişaf etmiş Azərbaycanın inzibati mərkəzləri xarabalıqlara çevrilib. Hazırda işğaldan azad olunmuş ərazilərimizə səfər edən xarici müşahidəçilər bu məntəqələri "ruhlar şəhəri" və ya "Qafqazın Xirosiması" adlandırıblar.

İşğalçı Ermənistan dövlətinin vandalizm aktlarının əsas məqsədi "böyük Ermənistan" xülyası ilə azərbaycanlıların əzəli torpaqlarında həm tarixi keçmişimizi, həm də mənəvi yaddaşımızı məhv etmək olub.

İndiki Ermənistan ərazisində və Azərbaycanın işğaldan azad olunmuş ərazilərində insanlıq və mülkiyyət əleyhinə olan cinayətlərə, mədəni irsin dağıdılmasına görə Ermənistan məsuliyyət daşımalı və Avropa Parlamentinin qərəzli qətnaməsində qeyd edildiyi kimi cəzalandırılmalıdır. Ermənistanın xalqımıza məxsus abidələri dağıtması "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyası, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyası və "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il Konvensiyasının tələblərinə ziddir. Ermənistan tərəfindən Azərbaycan xalqının mədəni irsinin məhv edilməsinə və saxtalaşdırılmasına yönəlmiş, beynəlxalq sənədlərdə bəşəri cinayət kimi qiymətləndirilən bu əməllər bütün bəşər mədəniyyətinə qarşı təcavüzdür və Avropa Parlamenti tərəfindən qətiyyətlə pislənməlidir.

Təəssüflə qeyd etməliyik ki, Ermənistan tərəfindən 1992-ci ildə Azərbaycanın Xocalı şəhərində 63-ü uşaq, 106-sı qadın, 70-i ahıl olmaqla, 613 günahsız insanın vəhşicəsinə qətlə yetirildiyi, o cümlədən 8 ailənin tamamilə məhv edildiyi, bu şəhərin yerləyeksan olduğu soyqırımına avropalı parlamentarilər hüquqi qiymət vermək haqda düşünmürlər və bu genosidin günahkarları hələ də mühakimə olunmayıb, onların bəziləri, hətta Ermənistanda rəhbər vəzifələrdə olmuş şəxslər bu dəhşətli cinayətdə iştirak etdikləri ilə qürur duyduqlarını bildirirlər. Buna görə də erməni hərbi-siyasi rəhbərliyi "Yeni torpaqlar naminə yeni müharibələr", "Qarabağ Ermənistandır" deyərək öz xalqını işğalçılığa sürükləyəndə, İkinci Dünya müharibəsi zamanı alman faşistləri ilə sıx əməkdaşlıq edən, erməni irqçi hərəkatı olan "tsexakron" ideologiyasının banisi Njde-Qareqin Ter Arutyunyanın xatirəsini əbədiləşdirərək ona İrəvanda heykəl ucaldılan zaman Avropa Parlamenti öz səsini ucaltmadı və Ermənistan rejimi öz qəsbkarlıq əməllərinə dəstək almış oldu, indi də Azərbaycana qarşı təxribatlarını davam etdirərək revanşizm şüarları ilə çıxış etməkdədir.

1982-ci ildə ABŞ Dövlət Departamentinin aylıq bülletenində ilk dəfə "erməni terrorizmi" ifadəsi rəsmi qeyd olunub. Sırf nasist-terrorçu mənəviyyatına əsaslanan Armenakan, QNÇAK, Daşnaksütyun, ASOA, ASALA və digər bu kimi erməni terror təşkilatları dünyanın müxtəlif bölgələrində, o cümlədən bir sıra Avropa ölkələrində təşkilatlanaraq Azərbaycan və Türkiyəyə qarşı öz məkrli zorakılıq siyasətlərindən əl çəkmirlər.

Mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanda mövcud olan tarixi-dini abidələr bu ölkədə yaşayan xalqların milli kimliyini, mənəvi-əxlaqi dəyərlərini və adət-ənənələrini özündə təcəssüm etdirən müqəddəs məkanlardır. Bu irs nümunələri daim Azərbaycan dövləti tərəfindən qayğı ilə qorunur, məscidlərimiz, kilsələrimiz və sinaqoqlarımız təmir edilir, yeniləri inşa olunur. Multikultural ənənələrə sadiq olan Azərbaycan dövləti bu siyasəti prioritet istiqamət kimi dəyərləndirir və nəinki Azərbaycanda, hətta dünyanın müxtəlif bölgələrində, Vatikanda "katakombaların", Fransada Roma kilsələrinin, Strasburqda qədim "vitrajların", Serbiyada tarixi abidələrin, məscid və kilsələrin bərpasına əvəzsiz töhfələr verib.

Bunun müqabilində erməni yalanına uyan beynəlxalq qurum - Avropa Parlamenti qərəzli anti-Azərbaycan qətnaməsini qəbul edir və ölkəmizi "erməni mədəni irsini məhv etməkdə" günahlandıraraq cəzalandırmağa çağırır.

Biz, Azərbaycandakı dini konfessiya rəhbərləri Avropa Parlamentində "Dağlıq Qarabağda mədəni irsin məhv edilməsi haqqında" adlı qərəzli qətnamənin lehinə səs vermiş 635 parlamentariyə narazılığımızı və bu hadisəni təəssüflə qarşıladığımızı bildiririk. Belə yanaşmalar Avropa Parlamentinin ikili standartlara əsaslanaraq birtərəfli ermənipərəst mövqeyə malik olması qənaətini yaradır. Biz, Azərbaycanda erməni qəsbkarları və terrorçuları tərəfindən yüz ildən artıq müddətdə azərbaycanlılara və burada yaşayan digər millətlərin nümayəndələrinə qarşı törədilən qətliamlara, mədəni-mənəvi irsimizin dağıdılmasına siyasi-hüquqi qiymət verməyə, həqiqəti yanlışdan seçərək ədalətin yanında olmağa və bu qərəzli qətnaməni ləğv etməyə çağırırıq.

***Şeyxülislam Allahşükür PAŞAZADƏ,***
***Qafqaz Müsəlmanları İdarəsinin sədri***

***Arximandrit ALEKSİY,***
***Rus Pravoslav Kilsəsinin***
***Bakı və Azərbaycan Yeparxiyasının katibi***

***Melih YEVDAYEV,***
***Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri***

***Robert MOBİLİ,***
***Azərbaycandakı Alban-Udi Xristian Dini İcmasının sədri***

***Aleksandr ŞAROVSKİ,***
***Bakıdakı Avropa Yəhudiləri İcmasının rəhbəri***

# Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası Ramazan ayı ilə əlaqədar Fətva verib



Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası mübarək Ramazan və orucluq ayının başlanması münasibətilə dünya və ölkə müsəlmanlarına təbriklərini ünvanlayır, bu müqəddəs ayda vacib ibadətlərin Allah dərgahında qəbula yetməsi üçün dualar edir.

AZƏRTAC xəbər verir ki, Ramazan ayı ilə bağlı Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası Fətva qəbul edib.

Fətvada deyilir: "Ramazanın fəzilətləri barədə müqəddəs Kitabımız "Qurani-Kərim"də Uca Rəbbimiz buyurur: "Ramazan ayı insanlara doğru yol göstərən, doğru yolu və haqqı batildən ayırmağı açıq-aşkar dəlillərlə bəyan edən Quranın nazil olduğu aydır. Sizdən hər kim o aya yetişsə oruc tutsun..." (Bəqərə, 185). Aləmlərə rəhmət, möminlərə mərhəmət olan "Qurani-Kərim"in nazil olduğu mübarək Ramazanda müqəddəs dinimizə ehtiram nümayiş etdirməkdə, oruc ibadətimizi layiqincə tamamlamaqda bizə yardımçı olmasını Uca Rəbbimizdən raz-niyaz edirik!

Qazılar Şurası builki Ramazan Fətvasını dindarlarımızın nəzər-diqqətinə təqdim edir və bildirir ki, Qafqaz Müsəlmanları İdarəsinin müvafiq sorğusuna əsasən Azərbaycan Milli Elmlər Akademiyası Şamaxı Astrofizika Rəsədxanasının hesablamalarına görə, bu il üfüqümüzdə hilalın (təzə Ayın) aprelin 1-i görünməsi Ramazan ayının 1-i miladi təqvimlə 2022-ci il aprelin 2-nə təsadüf edəcək.

Möhtərəm qardaş və bacılar! Artıq ikinci ildir ki, Ramazan ayına qalib xalq, Vətən və şəhadət eşqi sayəsində 30 illik işğala son qoymuş millət kimi qədəm qoyuruq. Qarabağa zəfər yürüşünün əzmlə sona çatması Rəhman və Rəhim Allahın lütfü və tarixi ədalətin bərpası oldu. Biz dindarlar Qarabağ zəfəri ərəfəsində olduğumuz Ramazani-şərifin fəzilətlərindən olan ədalətin zülm üzərində qələbəsi kimi dəyərləndirərək qazilərimizin qəhrəmanlıqlarını təqdir edir, amalı Peyğəmbər (s) və Əhli-Beyt (ə) sevgisi olan şəhidlərimizə Uca Yaradandan rəhmət diləyir, bizə bu səadəti yaşatdığına görə ordu-dövlət-xalq birliyinə güvənən müzəffər sərkərdə və Ali Baş Komandan İlham Əliyevə sonsuz dualar edirik. On bir ayın sultanı olan Ramazani-şərif duaların qəbul olunduğu aylardandır. Mübarək ayın verdiyi bu fürsətdən istifadə edərək əzəli torpaqlarımıza Böyük Qayıdışın təmin olunması, viran qoyulmuş ərazilərimizə yeni nəfəs verilməsi, Qarabağda müasir həyat şəraitinin qurulması, vandalizmə məruz qalmış dini məbədlərin, məscidlərin bərpa edilməsi istiqamətində fövqəladə zəhmətlərinə görə dövlətimizin başçısı, Zati-aliləri, Prezident İlham Əliyevə, eləcə də ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya Azərbaycan dindarları adından dərin minnətdarlığımızı bildirir, bu mübarək günlərdə onlara ən böyük İlahi nemət olan cansağlığı diləyirik.

Mənəviyyat və əxlaqın zənginləşməsinə vəsilə olan oruc ibadəti insanın daxili saflığına, pis vərdişlərdən uzaq durmasına, Allah yolunda xeyirxah işlər görməsinə, fiziki və mənəvi cəhətdən sağlam olmasına səbəb olur. Dövlətimiz tərəfindən verilən son qərara əsasən pandemiya sonrası dönəmdə dini tədbirlərin keçirilməsinə icazə verildiyi üçün təşəkkür edir, müvafiq qurumlara minnətdarlığımızı bildiririk.

Orucluq ibadəti yardımlaşmanı artıran, daxili dəyanəti gücləndirən İlahi qüvvəyə malikdir. Mərhəmət və şəfqət ayı olan müqəddəs Ramazan ayı ərzində iftar süfrələri açmaq, yardım və xeyriyyəçilik etmək, ehtiyacı olanlara, kimsəsiz insanlara, uşaq evlərinə, ahıl və qocalara imkan daxilində köməklik göstərmək Allah nəzərində bəyənilən əməllərdəndir. Quran tilavəti, valideynlərin qayğısına qalmaq, dünyasını dəyişənlərin ruhlarını yad etmək, elm-irfan və ibadətlə məşğul olmaq bu ayda ən böyük savabdır. Tövsiyə edirik ki, bu mübarək günlərdə torpaqlarımız, Vətənimiz uğrunda canlarını fəda edən qəhrəman şəhidlərin xatirəsi yad edilsin, ruhlarına dualar oxunsun, şəhid və qazi ailələrinə qayğı və diqqət göstərilsin. Qazılar Şurası din xadimlərimizin və yerlərdəki imamlarımızın nəzərinə çatdırır ki, Ramazanın vacibatları, qayda və qadağaları, müstəhəb əməlləri barədə dindarlara ətraflı şəkildə məlumatlar və şərhlər verilməlidir.

Hər il olduğu kimi, bu il də Qafqaz Müsəlmanları İdarəsi mübarək Ramazan ayının gündəlik duaları, imsak-iftar vaxtlarını əks etdirən xüsusi təqvim tərtib etmişdir. Bu təqvim idarəmizin internet saytında **(www.qafqazislam.com)** yerləşdirilmişdir. Biz xalqımıza təqvimin internet versiyasından istifadəni tövsiyə edirik. Digər mənbələrdən daxil olmuş, təfriqə xarakterli, məzhəb və vaxt ayrı-seçkiliyinə səbəb ola biləcək təqvimlərin din xadimləri və dindarlar tərəfindən istifadəsi qeyri-məqbuldur. Bütün kütləvi informasiya vasitələrindən məhz QMİ-nin təqviminə istinad etmələri xahiş olunur.

Oruc ibadətinin mühüm əməllərindən biri olan fitrə zəkatının vaxtı Ramazan ayının son günüdür. Qazılar Şurasının qənaətinə görə, adambaşına 10-15 manat fitrə zəkatının verilməsi məsləhət görülür. Fitrə canın sədəqəsidir və imkanı olan müsəlmanın ailəsinin hər bir üzvü üçün fitrə zəkatı çıxarması, imkansızlara, ehtiyacı olan ailələrə verməsi vacibdir.

İnşallah, Eydül-Fitr - Ramazan bayramının Şəvval ayının 1-i - Ayın üfüqi ərazimizdə görünməsindən asılı olaraq may ayının 2-nə təsadüf etməsi gözlənilir. Orucluq dönəmində ixlas və sədaqətlərini nümayiş etdirən Azərbaycan dindarları Prezident İlham Əliyevin, ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dövlətçiliyimizin uğurları naminə fədakar fəaliyyətini, dövlətimizin və hökumətimizin misilsiz səylərini yüksək dəyərləndirir, müqəddəs Ramazan ayında ali dövlət rəhbərlərimizə və onların ailə üzvlərinə Uca Allahdan sonsuz xeyir-dualar diləyirlər.

Qadir Allah doğma Azərbaycanımızı qorusun, bütün bəlalardan hifz etsin, rifah və tərəqqimizə rəvac versin! Allah oruc və namazlarımızı qəbul etsin, bizləri məğfirət və mərhəmətinə nail olan bəndələrindən qərar versin. Amin!"

# Qarabağda ilk idman tədbiri

## Suqovuşan avarçəkmədə əsas inkişaf mərkəzlərindən biri olacaq

Hazırda işğaldan azad olunmuş Qarabağda və Şərqi Zəngəzurda Prezident İlham Əliyevin rəhbərliyi ilə geniş abadlıq-quruculuq işləri gedir. Bu yerlərdə dövrümüzün ən qabaqcıl tələblərinə cavab verən, müasir texnologiyaların tətbiqi ilə yaradılan modern infrastruktur həm Qarabağın iqtisadi potensialından səmərəli istifadə edilməsində, həm də oraya qayıdacaq insanların normal həyat şəraiti ilə təminatında mühüm rol oynayacaq.





Təsadüfi deyil ki, həyata keçirilən abadlıq-quruculuq işlərinin müəllifi olan dövlət başçısı tez-tez işğaldan azad olunan ərazilərə səfərlər edir, burada müxtəlif infrastruktur obyektlərinin təməlini qoyur, açılışlarına qatılır. Həmin obyektlər isə ən müxtəlif sahələri əhatə edir.

Azadlığa qovuşmuş ərazilərdə müasir tələblərə cavab verən idman infrastrukturunun qurulması da xüsusi diqqət mərkəzindədir. Ümumiyyətlə, Azərbaycanda modern idman infrastrukturunun yaradılması istiqamətində çoxsaylı layihələr həyata keçirilir, mühüm tədbirlər görülür. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, Beynəlxalq Olimpiya hərəkatının fəal üzvlərindən olan Azərbaycanda onlarla olimpiya idman kompleksləri inşa edilib, digər idman obyektlərində isə əsaslı yenidənqurma işləri aparılıb. Heç şübhə yoxdur ki, tezliklə yeni olimpiya idman komplekslərinin, digər idman müəssisələrinin inşa ediləcəyi əsas məkanlardan biri də işğaldan azad edilən ərazilərimiz olacaq. Avarçəkmədən tutmuş güləşə, şahmatdan başlamış müxtəlif intellektual və komanda oyunlarına qədər, eləcə də bir çox digər idman növlərində Azərbaycanı layiqincə təmsil edəcək yeni idmançılar nəsli azad olunmuş ərazilərimizdə yetişəcək.

Həmin ərazilərdə inkişaf etdiriləcək idman növləri sırasında avarçəkmə də mühüm yer tutacaq. Artıq işğaldan azad olunan ərazilərdə ilk idman infrastrukturu yaradılıb. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Suqovuşan qəsəbəsinə bu səfəri işğaldan azad olunan ərazilərdə ilk idman tədbirinin təşkili ilə də yadda qaldı. Belə ki, Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası tərəfindən Tərtər rayonunun Suqovuşan qəsəbəsində ilk avarçəkmə təlim-məşq toplantısının rəsmi açılışı oldu. Xatırladaq ki, Azərbaycanda avarçəkmə idman növü ilə 1930-cu illərdən məşğul olunmağa başlanılıb. Sonralar bu, ənənəvi idman növlərindən birinə çevrilib.

Azərbaycanda ən məşhur avarcəkmə bazası Mingəçevirdə fəaliyyət göstərən "Kür" idi. Orada idmanın bu növü ilə məşğul olmaq üçün hər cür şərait yaradılmışdı: baza Kür çayının üzərində yerləşirdi, çay heç vaxt donmurdu, avarçəkəni çətinlik qarşısında qoymurdu. Bu baza iki bəndin arasında yerləşir və suyun səthinn düzlüyünu, sakitliyini tənzimləyir. "Kür" bazasından 18 kilometrlik məsafənin olması məşqlərə tamamilə uyğun idi. Eyni zamanda, təmiz hava, müsbət temperatur, deməli, "açıq su"da olmaq imkanı bazanın təlim-məşq tələblərinə tam cavab verirdi. Buna görə də ötən əsrin 80-ci illərinə qədər keçmiş Sovet İttifaqının avarçəkənləri, digər sosialist ölkələrinin yığma komandaları, hətta 2000 metrlik ən uzun məsafəyə akademik avarçəkənlər təlim, məşq üçün "Kür" bazasına gəlirdilər.

Müstəqilliyin ilk illərində Mingəçevirdəki baza baxımsız hala düşsə də, dövlət başçısının tapşırığı ilə 2010-cu ildə bura ən yüksək standartlara cavab verən səviyyəyə çatdırılıb. Hazırda əsas məqsədlərdən biri ölkədə avarçəkmə idman növünün coğrafiyasını genişləndirmək və gəncləri bu idman növünə cəlb etməkdir. Xatırladaq ki, Olimpiya tariximizdə ilk dəfə medal qazandığımız idman növlərindən biri avarçəkmədir. Təmsilçilərimizdən Valentin Demyanenko Rio Olimpiadasında birnəfərlik kanoe qayığı (C-1) ilə 200 metr məsafəyə yarışda gümüş, İnna Osipenko-Radomska bürünc medallara layiq görülmüşdü.

Son dövrlər digər idman növlərində olduğu kimi avarçəkmədə də federasiyanın rəhbər, məşqçi heyətlərinin yenidən təşkili sürətlə gedir. Özü də olduqca düzgün seçimlər aparılır. Öz sahələrində səmərəli fəaliyyət göstərən şəxslər inanırıq ki, federasiyalardakı ətaləti, ləngimələri tezliklə aradan qaldıracaq, avarçəkənlərimizin uğurları dünyanın dörd bir yanına yayılacaq. Qarabağda qurulacaq ən müasir idman arenalarında keçiriləcək beynəlxalq turnirlər isə ölkəmizə böyük dividendlər qazandıracaq.

Beləliklə, işğaldan azad olunan Suqovuşan qəsəbəsində yaradılan infrastruktur Azərbaycanda idmanın avarçəkmə növünün peşəkar və həvəskar iştirakçılarının sayını daha da artıracaq. Bu gənclərin, yeniyetmələrin fiziki-mənəvi inkişafına müsbət təsir göstərməklə yanaşı, avarçəkmənin təbliği baxımından da əhəmiyyəti olacaq. Suqovuşanda yeni doğulan uşaqlar ölkəmizdə bu idman növünün inkişafına təkan verəcəklər. Qarabağdakı müasir infrastruktur avarçəkmə idmanın tərəqqisində vacib rol oynayacaq.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

**Dünya gündəmi**

# Qlobal ərzaq böhranı ciddi fəsadlar yarada bilər

## Avropa Komissiyası problemin qarşısını almaq üçün müvafiq tədbirlər görməyi düşünür



Belçikanın paytaxtı Brüsseldə keçirilmiş G7 ölkələrinin liderlərinin sammitində müzakirə olunan əsas mövzulardan biri qlobal ərzaq böhranının qarşısının alınması yollarının araşdırılması olub. Yekunda qəbul olunmuş birgə bəyanatda liderlər dünyada ərzaq tədarükü ilə bağlı mümkün böhrana qarşı mübarizə aparacaqlarını bildiriblər.

ABŞ Prezidenti Co Bayden, Böyük Britaniyanın Baş naziri Boris Conson, Fransa Prezidenti Emmanuel Makron, Almaniya kansleri Olaf Şolts, İtaliyanın Baş naziri Mario Dragi, Kanadanın Baş naziri Castin Trüdo, Yaponiyanın Baş naziri Kisido Fumio, Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və NATO-nun baş katibi Yens Stoltenberqin iştirak etdiyi sammitdə liderlər rəsmən elan ediblər: "Biz hələ də vəziyyəti diqqətlə izləmək və ərzaq təhlükəsizliyi sahəsində inkişaf edən qlobal böhranın qarşısını almaq və reaksiya vermək üçün lazım olan hər şeyi etmək əzmindəyik. Biz ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün bütün maliyyə alətlərindən və mexanizmlərindən ardıcıl istifadə edəcəyik".

Fransanın xarici işlər naziri Jan-İv Le Drian Ukrayna və Rusiya taxıllarının bazardakı payını nəzərə almaqla, Avropada ərzaq böhranının yaranacağı təhlükəsindən danışıb.

Bundan əvvəl G7-nin XİN başçıları Ukraynaya humanitar yardımı artırmağın lazım olduğunu bildiriblər və xatırladıblar ki, bir sıra dövlətlər bu ölkədən ərzaq tədarükündən asılıdır.

Ötən həftə həm də BMT-nin Ümumdünya Ərzaq Proqramında (WFP) Ukraynadakı vəziyyətin bu ölkədən və Rusiyadan kənd təsərrüfatı məhsullarının tədarükünün pozulmasına gətirib çıxardığını bəyan ediblər. Bildirilib ki, bu, dünyada ərzaq təhlükəsizliyini ciddi şəkildə pozur. Bundan əvvəl isə Avropa Komissiyasında ərzaq böhranının baş verməsi ehtimalı haqqında fikirlər səsləndirilib. Avropa İttifaqında Ukraynada baş verən hadisələr nəticəsində ərzaq böhranı ehtimalı ciddi şəkildə nəzərdən keçirilir və Avropa Komissiyası (AK) bu məsələ ilə bağlı gələn həftə xüsusi məlumat hazırlayır.

"Biz aqrar-sənaye sektorunda yeni bir çağırışa sahibik. Ukrayna və Rusiyanın böyük miqdarda ərzaq məhsulları ixrac edən iri tədarükçülər olması ilə əlaqədar vəziyyəti və onun kənd təsərrüfatı istehsalçılarımız üçün və dünyada ərzaq təhlükəsizliyi üçün fəsadlarını izləyirik", - deyə Brüsseldə keçirilən brifinqdə qurumun rəsmi nümayəndəsi Miriam Qarsiya Ferrer bildirib.

Onun dediyinə görə, indiki mərhələdə ittifaqda ərzaq təhlükəsizliyi ilə əlaqədar problem yoxdur: "Çünki biz taxılın böyük istehsalçısıyıq. Lakin pozulmuş ticarət mübadiləsi səbəbindən qiymətlərdə dəyişikliklər olacaq".

Avropa Komissiyasının nümayəndəsi vurğulayıb ki, qısamüddətli perspektivdə əsas çağırışlardan biri əlaqəli məhsulların, xüsusilə gübrələrin, istehlakçılar üçün qiymətlərin artmasından ibarətdir. Ortamüddətli perspektivdə etibarlı və dayanıqlı aqro - ərzaq sisteminə diqqət yetiriləcək.

Miriam Qarsiya Ferrer son günlər Avropa İttifaqı kənd təsərrüfatı nazirlərinin müzakirələrini və Versalda Aİ ölkələrinin sammitində dövlət və hökumət başçılarının müzakirələrini belə dəyərləndirib: "Bütün bunlar ərzaq təhlükəsizliyinin yaxşılaşdırılmasının zəruriliyini vurğulayır və biz bu çağırışlara cavab vermək üçün tədbirlər haqqında düşünürük".

***Rizvan HİLALOĞLU,***
***"Azərbaycan"***

## Son sutkada Azərbaycanda COVID-19 infeksiyasına 48 yoluxma faktı qeydə alınıb




Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 48 yoluxma faktı qeydə alınıb, 31 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 3 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 791 min 814 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 781 min 819 nəfər müalicə olunaraq sağalıb, 9 min 687 nəfər vəfat edib. Aktiv xəstə sayı 308 nəfərdir. Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 4 min 481, bu günə qədər isə ümumilikdə 6 milyon 692 min 62 test icra olunub.

## Martın 29-da Azərbaycanda COVID-19 əleyhinə 19 min dozaya yaxın vaksin vurulub

Martın 29-da Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə 18 min 957 doza vaksin vurulub.




Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, gün ərzində birinci doza üzrə vurulan vaksinlərin sayı - 1 min 31, ikinci doza vaksinlərin sayı - 2 min 475, üç və daha çox doza vaksinlərin sayı - 14 min 568, pozitiv nəticədən sonra "buster" doza vaksinlərin sayı - 883-dür.

Azərbaycanda bu günə qədər vurulan vaksinlərin ümumi sayı 13 milyon 425 min 32, birinci mərhələ üzrə vurulan peyvəndlərin ümumi sayı 5 milyon 322 min 427, ikinci mərhələ üzrə 4 milyon 821 min 276, üç və daha çox doza vaksinlərin sayı 3 milyon 54 min 89, pozitiv nəticədən sonra "buster" doza vaksinlərin sayı 227 min 240-dır.

Elm adamları

# Şərəfli ömür yaşayan dilçi alim



Görkəmli Azərbaycan filosofu Əbülhəsən Bəhmənyarın gözəl bir kəlamı var: "Elə adamlar axtarın ki, onlarla söhbət yaxşı kitablara bərabər olsun. Elə kitablar da axtarın ki, mütaliəsi filosoflarla söhbətə dəysin". Cəmiyyətdə şəxsiyyəti ilə yaradıcılığı və fəaliyyəti üst-üstə düşən, tərcümeyi-halı ilə gələcək nəsillərə nümunə olan ziyalılara rast gəlmək, onlarla həmsöhbət və yol yoldaşı olmaq nə qədər qürurvericidirsə, bir o qədər də məsuliyyətlidir. Belə alim və müəllimlərdən dərs almaq, məxsus olduğun peşənin sirlərini öyrənmək, doğrudan da, tələbələr üçün sözün əsl mənasında böyük xoşbəxtlikdir. Bakı Dövlət Universitetinin Filologiya fakültəsində vaxtilə ölkəmizin elə tanınmış alimləri çalışmışdır ki, bu gün müəllimlərimiz onların həyat yolundan fərəhlə bəhs edərkən insan bir tərəfdən heyrətlənirsə, digər tərəfdən onları görmədiyi və canlı dinləmədiyi üçün təəssüflənir. Ancaq yeganə təsellimiz odur ki, həmin böyük ziyalıların özlərindən sonra yetişdirdiyi elə tələbələri də var ki, hazırda bu şərəfli yolda uğurla addımlayır, klassiklərimizin irsini yaşadır və ənənələrini layiqincə davam etdirirlər. Bu ənənə və varisliyi uğurla davam etdirən, halal alim və müəllim ömrü yaşayan ziyalılarımızdan biri də Bakı Dövlət Universitetinin Türkologiya kafedrasının dosenti Qızılgül Abdullayevadır.

Qızılgül Ağəli qızı Abdullayeva 1952-ci il martın 22-də Qubadlı rayonunda dünyaya göz açmışdır. Sumqayıt şəhərində tam orta məktəbi bitirdikdən sonra 1969-cu ildə Bakı Dövlət Universitetinin Filologiya fakültəsinə qəbul olunmuş və oranı fərqlənmə diplomu ilə başa vurmuşdur. Universiteti bitirdikdən sonra o, taleyini müqəddəs müəllimlik peşəsinə bağlamış, bilik və bacarığı ilə alimlik mərtəbəsinə yüksəlmişdir. Əmək fəaliyyətinin ilk illərində, yəni 1974-1978-ci illərdə Zərdab rayonu Əlvənd kənd orta məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimi işləmişdir. 1978-ci ildən Bakı Dövlət Universitetində müxtəlif vəzifələrdə - kitabxanaçı, böyük kitabxanaçı, metodist, baş laborant, müəllim, baş müəllim vəzifələrində çalışmışdır. Elmi-pedaqoji fəaliyyəti BDU-nun Türkologiya kafedrası ilə bağlı olan Qızılgül Abdullayeva 1984-1987-ci illərdə həmin kafedranın əyani aspirantı olmuş, 1988-ci ildə "Müasir Azərbaycan ədəbi dilinin bədii üslubu (50-ci illər ədəbi nəslinin şeir dili əsasında)" mövzusunda namizədlik dissertasiyasını, 2022-ci ildə "XVII əsr Azərbaycan ədəbi dili" mövzusunda doktorluq dissertasiyasını uğurla müdafiə etmişdir.

O, Azərbaycan dilinin tarixi üzrə dəyərli araşdırmalar aparmışdır. "Dilin şeir rəngi" (2005), "Kül tiqin abidəsi" (2007), "XVII əsr Azərbaycan ədəbi dilinin fonetik və leksik norma demokratizmi" (2019), "XVII əsr Azərbaycan ədəbi dilinin qrammatik norma demokratizmi" (2019) adlı kitabların, "Qədim türk yazılı abidələri" (2006) adlı metodik vəsaitin, "Qədim türk dili" (2009) adlı metodik göstərişin, "Qədim türk dili", "Əski Azərbaycan yazısı", "Azərbaycan dilinin tarixi qrammatikası", "Azərbaycan ədəbi dili tarixi", "Azərbaycan dili tarixi" adlı tədris proqramlarının, habelə 100-dən çox məqalənin müəllifidir. Uğurlu elmi-pedaqoji fəaliyyətinə görə Qızılgül Abdullayeva "Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019) Azərbaycan Respublikasının yubiley medalı" ilə təltif edilmiş, "Qızıl qələm" mükafatına və "İlin alimi" (2021) fəxri adlarına layiq görülmüşdür. Onun "XVII əsr Azərbaycan ədəbi dilinin fonetik və leksik norma demokratizmi" və "XVII əsr Azərbaycan ədəbi dilinin qrammatik norma demokratizmi" adlı monoqrafiyaları Azərbaycan Milli Elmlər Akademiyasında ilin mühüm nəticəsi kimi dəyərləndirilmişdir. Uğurlu qələm sahibi olan Qızılgül xanım Azərbaycan-Özbəkistan Dostluq Cəmiyyəti İdarə Heyətinin, həmçinin Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.

Alimin elmi yaradıcılığı dil tarixinin müxtəlif sahələrini əhatə edir. Buraya müəllifin Azərbaycan dilinin tarixi qrammatikası, Azərbaycan ədəbi dilinin tarixi məsələləri ilə yanaşı, türk dillərinin, xüsusilə qədim türk dilinin fonetik, leksik və morfoloji quruluşu haqqındakı sanballı araşdırmaları aid edilə bilər. Bu tədqiqatlarda türk xalqlarının Orxon-Yenisey, "Dədə Qorqud kitabı", "Kutadqu bilik" kimi qədim türk yazılı abidələri ilə bərabər, Orta əsrlərdə türk dilinin inkişafına böyük töhfələr vermiş görkəmli ədəbi şəxsiyyətlərin (Y.Əmrə, Nəsimi, Füzuli və s.) dilinin öyrənilməsinə də geniş yer verilmiş, həmin ədəbi nümunələrin Azərbaycan dilinin tarixindəki rolu aydın şəkildə tutarlı elmi faktlarla əsaslandırılmışdır. Bu baxımdan alimin yaradıcılığının əsas istiqamətlərindən biri qədim türk dilinin öyrənilməsinə dair əsərləridir. Buraya tədqiqatçının "Kül tiqin abidəsi", "Qədim türk yazılı abidələri", "Qədim türk dili" adlı kitabları, həmçinin "Qədim türk dilində hal kateqoriyası", "Qədim türk dilində kəmiyyət kateqoriyası", "Qədim türk dilində feilin zaman və şəxs şəkilçilərinin tarixi inkişafı", "Arxaikləşmiş qədim türk sözlərinin kök morfemlərdəki tarixi izi", "Türk mənşəli sözlərin ən qədim fonoloji sonluğu", "Qədim türk sözlərinin leksik-qrammatik xüsusiyyətləri", "Tonyukukun dilində qrammatikləşmiş şəxs əvəzliklərinin şəxs şəkilçiləri ilə müvaziliyi", "Tonyukuk" abidəsinin leksik tərkibində "novatorluq - ümumişləklik - arxaiklik" taleyi yaşayan sözlər" və digər məqalələri daxildir.

İkinci istiqamət Azərbaycan dilinin tarixinə dair tədqiqatlarıdır. Müəllifin bu istiqamətdəki araşdırmalarında dilimizin fonetik, leksik və morfoloji quruluşunun öyrənilməsinə geniş yer ayrılmışdır: "Feili frazeoloji birləşmələrin leksik tərkibi (Q.Təbrizinin dili əsasında)", "Fədainin "Bəxtiyarnamə" əsərinin dilində leksik paralellər", "Saib Təbrizi dilinin leksikasına dair bəzi qeydlər", "Omonimlərin leksik-semantik xüsusiyyətləri (Qövsi Təbrizinin dili əsasında)", "Müasir Azərbaycan dilində arxaikləşmiş qədim türk leksik qatı", "Fədainin "Bəxtiyarnamə" əsərinin dilində fonetik arxaizmlərin əhatə dairəsi", "Nəsimi leksikası oğuz qrupu dilləri ilə müqayisədə", "Yunus Əmrə "Divan"ında leksik fakt zənginliyinin omonimik mənbəyi", "M.Əmaninin dilində hal kateqoriyası" və s.

Bütün bunlarla yanaşı, Qızılgül Abdullayevanın araşdırmalarında türkoloji dilçiliyin çağdaş məsələləri də işıqlandırılmışdır: "Türk dili dünya evində", "Azərbaycan mətbuatına osmanlı türkcəsinin təsiri", "Azərbaycan və Türkiyə türkcəsi paralelliyində ümumünsiyyət faktından ortaq türkcəyə keçid" və digər məqalələrində müəllifin xaricdə keçirilmiş beynəlxalq elmi konfranslarda və nüfuzlu dərgilərdə həmin mövzularla bağlı səsləndirdiyi tezislər mütəxəssislərin marağına səbəb olmuşdur.

Azərbaycan türkologiyasında XVII əsr ədəbi dilinin geniş şəkildə tədqiqi Qızılgül Abdullayevanın adı ilə bağlıdır. Alimin uzun illər üzərində gərgin əmək sərf etdiyi "XVII əsr Azərbaycan ədəbi dili" adlı doktorluq dissertasiyasında ədəbi dilimizin araşdırmalardan kənarda qalmış bu mərhələsi ətraflı öyrənilmişdir. Qızılgül xanım bu tədqiqatında Fədai, M.Əmani, Q.Təbrizi, S.Təbrizi, Məsihi kimi sənətkarlarla yanaşı, ilk dəfə olaraq, Rəhməti Paşa, Sadiq bəy Əfşar, Tərzi Əfşar, Zəfər, Məczub, Vəhid Qəzvini, Şah Abbas Kəbir, Şah Abbas Sani və başqalarının yaradıcılığı əsasında XVII əsr Azərbaycan ədəbi dilinin fonetik, leksik və qrammatik normalarını tam şəkildə tədqiqata cəlb etmişdir.

Q.Abdullayeva nüfuzlu alim olmaqla yanaşı, həm də peşəkar müəllim-pedaqoqdur. Azərbaycan dilinin tarixinə dair fənlərdən dərs aparan alim özünəməxsus pedaqoq diplomatiyası ilə tələbələrinin qəlbinə yol tapmağı bacarır, onlara düzgün elmi istiqamətlər verir.

Həm alim və müəllimliyi, həm də şəxsi keyfiyyətləri ilə görkəmli türkoloq, akademik Tofiq Hacıyev məktəbinin layiqli yetirməsi olan Qızılgül Abdullayeva elmi-pedaqoji fəaliyyətində daim bu böyük şəxsiyyətin irsini yaşadır, təbliğ edir və gənc nəslə aşılayır. Mühazirələrində və çıxışlarında həmişə Tofiq Hacıyevin dediyi bir fikri xatırladır: "Mənim yetirmələrim çoxdur. Amma kişi yetirmələrimin içində akademik Nizami Cəfərov, qadın yetirmələrimin içində isə Qızılgül xanım mənim layiqli davamçılarımdır". Qızılgül Abdullayeva özü də qeyd edir ki, "bu mənim həyatımda aldığım ən böyük mükafatdır". Akademik Tofiq Hacıyev irsinə bağlılıq yalnız Qızılgül Abdullayevanın pedaqoji fəaliyyəti ilə məhdudlaşmır, o həm də elmi yaradıcılığında bu missiyanı uğurla davam etdirir: "Kimlər gəldi, kimlər getdi bu dünyadan" (2016), "Elmi yeniliklərin qovşağında daşlaşan əsər" (2016), "Akademik Tofiq Hacıyevin yaradıcılığında milli dil məsələsi" (2019), "Azərbaycan ədəbi dilinin tarixi"ndəki ilklərin akademik Tofiq Hacıyev ünvanı" (2021) adlı məqalələrində görkəmli alimin həyat və yaradıcılığı ilə bağlı mühüm məsələlərə toxunur.

Qızılgül xanım eyni zamanda gözəl ailə başçısıdır - ANADIR. Ömür-gün yoldaşı, tanınmış naşir və publisist Adil Abdullayevlə uzun illər minbir əziyyətlə irəlilədiyi bu enişli-yoxuşlu və şərəfli yolda cəmiyyətimiz üçün iki layiqli övlad - vətəndaş yetişdirmişdir. Bu ziyalı ocağında boy atan, alim və müəllim kimi yetişən qızı Xatirə Abdullayeva Bakı Slayvan Universitetinin Türkologiya kafedrasının dosenti kimi anasının yolunu layiqincə davam etdirir. Oğlu isə hüquqşünasdır.

Qızılgül xanım gözəl, təmkinli izahları, sanballı fikirləri, elmi mükalimələri ilə daim müsahiblərinin diqqət mərkəzində dayanmağı bacarır. Dəfələrlə şahidiyik ki, o, beynəlxalq qurultaylarda dünyanın müxtəlif ölkələrindən gəlmiş alimlərin məruzələrini necə maraqla dinləyir. Qızılgül xanım dilimizin tarixinə dair həqiqətlərin türkoloji ictimaiyyətə layiqincə çatdırılması üçün bu cür elm məclislərinə daim aktual mövzularla qatılır, çıxışları bölmələrdə böyük maraqla qarşılanır. Alim türkoloji dilçilikdə öz imzası ilə tanınır, qəbul edilir.

Qızılgül Abdullayeva bu gün də gənclərin əhatəsindədir və yorulmadan elmi-pedaqoji fəaliyyətini davam etdirir. Tələbələr bu dəyərli alimin mühazirələrinə böyük maraqla qulaq asır, gənc müəllim və tədqiqatçılar onun təcrübəsindən faydalanırlar. Tanınmış alim Qızılgül Abdullayeva ölkəmizdə elmin və təhsilin inkişafına sanballı töhfələr verir.

***Pərvin EYVAZOV,***
***BDU-nun "Türkoloji araşdırmalar" ETL-nin elmi işçisi***

